**HOTELLƏR, İAŞƏ OBYEKTLƏRİ, KİRAYƏ EVLƏR**

# QARABAĞA NECƏ GEDƏK?




Ölkə vətəndaşları işğaldan azad olunan ərazilərə turist kimi səfər etmək arzusundadırlar. Bu, yaxın və uzaqda, şəhər və rayonda, ucqar dağ kəndində və ya aranda yaşamasından asılı olmayaraq, hər bir vətəndaşımızın ürəyindən keçir.

Əgər dünənə qədər vətəndaşlar öncədən portal vasitəsilə yalnız Şuşa, Laçın şəhərləri və Suqovuşan qəsəbəsinə səfər edə bilirdilərsə, artıq bu siyahıya Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Xankəndi, Xocalı və Ağdərə də əlavə olunub.

SƏHİFƏ 8-9-da


'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

31 MAY ŞƏNBƏ 2025 № 20 (4221) Qiyməti - 60 qəpik www.kaspi.az







## BAKI-VAŞİNQTON TƏMASLARI İNTENSİVLƏŞİB

ABŞ rəhbərliyinin Cənubi Qafqaz bölgəsinə marağı artmaqdadır. Ağ Ev rəhbərliyi bölgədə Azərbaycanın yaratdığı yeni reallıqları nəzərə alır və bölgədə əsas tərəfdaş qismində məhz rəsmi Bakını görür.

SƏHİFƏ 2-də



## TRAMPIN QEYRİ-ADİ İXTİSARLARI

Trampın prezident kürsüsünə əyləşməsindən dörd aydan artıq vaxt keçir. Bu müddətdə ölkədə 130 minə yaxın dövlət işçisi işdən çıxarılıb. Kütləvi ixtisarlar 30-a yaxın departamentə təsir edib.

SƏHİFƏ 5-də

**SÜLHÜ VƏ SABİTLİYİ GÜCLƏNDİRMƏYƏ HESABLANAN ƏMƏKDAŞLIQ**

# GÜC, QÜRUR VƏ QARDAŞLIQ ZİRVƏSİ



Türkiyə-Azərbaycan-Pakistan ittifaqı institusionallaşma istiqamətində irəlilədilir. Zirvə görüşündə də vurğulandığı kimi, bu əməkdaşlıq formatının qalıcı olması üçün mühüm qərarların qəbul edilməsi gözlənilir.

### LAÇIN TARİXİ ANLARA ŞAHİDLİK ETDİ

Laçın Müstəqillik Günündə möhtəşəm tarixi anlara şahidlik etdi. Dövlət müstəqilliyimizin 107-ci ili ilə bağlı tədbirlərdə Prezident İlham Əliyevlə yanaşı, Türkiyə Prezidenti və Pakistanın Baş nazirinin də iştirakı dünyaya Bakı-Ankara-İslamabad birliyinin gücünü və əzəmətini nümayiş etdirdi.

### SAYCA DOQQUZUNCU HAVA LİMANI

Laçın bu gün dünyanın nüfuzlu ictimai-siyasi xadimlərini qonaq edir. Ölkə üzrə sayca doqquzuncu, işğaldan azad edilmiş ərazilərdə isə inşa edilən üçüncü beynəlxalq hava limanının Laçında açılması, onun ilk sərnişinlərinin Türkiyə Prezidenti və Pakistan Baş naziri olması isə dünyaya, dosta-düşmənə ünvanlanan mesaj idi.

SƏHİFƏ 3-də



## "O XALQ Kİ, UNUDUR, ONUN FACİƏLƏRİ ÇOX OLUR"

Professor Anar İsgəndərli: "44 günlük müharibədən sonra dünya öyrəndi ki, insan öz Vətənini necə sevə bilər! Siz bu gün fəxr edəndə "Azərbaycan" şeiri ilə yox, Azərbaycan reallığı ilə fəxr edirsiniz".

SƏHİFƏ 6-da



## EV ALMAQ ÜÇÜN ƏN SƏRFƏLİ VARİANTLAR

Bu gün torpaq alıb ev tikmək sərfəli deyil. Köhnədən ərsəyə gələn əmlakı almaq və üzərində müəyyən tikinti işləri aparmaq daha sərfəlidir. Çünki tikinti materialları bahalaşdığından ev tikmək baha başa gəlir.

SƏHİFƏ 7-də



## QIZIL GİROV QOYARKƏN NƏLƏRƏ DİQQƏT ETMƏLİ?

Qızıl girov qoyularkən zinət əşyası kimi yox, saf qızıl kimi qiymətləndirilir. Girov saxlayan qurumlar üçün qızılın əl işi və ya zinət əşyası olub-olmaması vacib deyil, əsas olan onun tərkibindəki saf qızılın miqdarıdır.

SƏHİFƏ 11-də

**"Bəzən ən kiçik bir söz belə məni məyus edir"**

## "SON VAXTLAR KEÇMİŞ MƏNƏ DAHA YAXIN GƏLİR"

Yaradıcı insanlar həmişə digərlərindən fərqləniblər. Həm həyata baxışları, daxili zənginlikləri, həm də istedadları ilə. Müsahibimiz Əməkdar mədəniyyət işçisi, Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyi sədrinin müavini, şair Rəşad Məcid də yaradıcı insanlardandır. O, bizimlə söhbətində çox mətləblərə aydınlıq gətirdi.



SƏHİFƏ 15-də



## ŞƏKƏR SEVGİMİZ ARTMAQDADIR

Şəkər və un məmulatlarının ziyanlarından tez-tez danışılsa da, bu məhsulların istehsalı hər il artmaqdadır. Ekspertlərin fikrincə, tələbatın artmasının başlıca səbəbi müasir həyat tərzimizdir.

SƏHİFƏ 12-də



**Döyülən dövlət başçısı sindromu**

SƏHİFƏ 4-də



**"Qlobal informasiya mühiti və media trendləri"**

SƏHİFƏ 10-da



**Uşaqları dilənçilikdən necə xilas edək?**

SƏHİFƏ 13-də



**Yerli qoyunlara rəqib gəlir**

SƏHİFƏ 14-də



**Möhtəşəm təşkilatçılıq, ürəkaçan nəticələr**

SƏHİFƏ 16-da



## Almaniya ilə iqtisadi əlaqələr müzakirə edilib

Prezident İlham Əliyev mayın 30-da Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsı qəbul edib.

Söhbət zamanı dövlətimizin başçısının Mixael Harmsla, həmçinin Almaniya biznes dairələri və şirkətlərinin nümayəndələri ilə görüşləri məmnunluqla xatırlanıb, Almaniya Prezidentinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin, o cümlədən iqtisadi sahədə əlaqələrimizin genişlənməsində rolu vurğulanıb.

Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari sahədə əməkdaşlığın inkişaf etdiyi bildirilib.

Mixael Harmsın ölkəmizə səfərinin səmərəli olacağına və iqtisadi əməkdaşlıqla bağlı gündəliyimizin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvarlıq ifadə edilib.

Qonaq qarşılıqlı iqtisadi layihələrlə bağlı AZPROMO ilə "Yol xəritəsi"nin imzalanacağını qeyd edərək, bu məsələdə Azərbaycan Prezidentinin siyasi dəstəyini vurğulayıb.

Görüşdə Azərbaycanda mövcud olan əlverişli investisiya şəraitinə toxunularaq, bu xüsusda alman iş adamlarının ölkəmizə sərmayə yatırmaları qeyd edilib və iqtisadi əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.



## Azərbaycan UN-Habitat İcraiyyə Şurasına üzv seçilib

BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) Assambleyasının 30 may tarixində Keniyanın paytaxtı Nayrobi şəhərində keçirilmiş növbəti sessiyası çərçivəsində Azərbaycan ilk dəfə olaraq UN-Habitat İcraiyyə Şurasına üzv seçilib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, UN-Habitat İcraiyyə Şurası Proqramın sessiyalararası fəaliyyət göstərən əsas qərarverici orqanıdır. Şurada 36 ölkə təmsil olunur. Qeyd edilən nüfuzlu BMT strukturuna Azərbaycanın üzvlüyü 2025-2029-cu illəri əhatə edəcəkdir.

Dayanıqlı şəhərsalma və insan məskənləri sahəsində ixtisaslaşmış UN-Habitat və Azərbaycan arasında əməkdaşlıq son illərdə dinamik inkişaf edir. Bunun bariz nümunəsi 2023-cü ildə UN-Habitatın Ümumdünya Məskunlaşma Gününün (WHD23) Azərbaycanda keçirilməsi olub. Bununla yanaşı, Azərbaycan 17-22 may 2026-cı il tarixlərində qlobal əhəmiyyətli BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) ev sahibliyi edəcək.



# BAKI-VAŞİNQTON TƏMASLARI İNTENSİVLƏŞİB

ABŞ rəhbərliyinin Cənubi Qafqaz bölgəsinə marağı artmaqdadır. Ağ Ev rəhbərliyi bölgədə Azərbaycanın yaratdığı yeni reallıqları nəzərə alır və bölgədə əsas tərəfdaş qismində məhz rəsmi Bakını görür.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son günlərdə Bakı-Vaşinqton diplomatik xəttində təmaslar artıb. Bu fəallıq ABŞ-nin Azərbaycanla münasibətlərin inkişafına verdiyi önəmin ifadəsi kimi dəyərləndirilir.

### TRAMPIN TƏBRİK MƏKTUBU

Prezident Donald Trampın Prezident İlham Əliyevə Müstəqillik Günü ilə bağlı ünvanladığı təbrik məktubunda bu önəm xüsusi olaraq qeyd edilir. Ağ Ev rəhbəri bildirib ki, ABŞ Azərbaycanla əlaqələri, həmçinin rəsmi Bakının terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyinin inkişafında, Ermənistanla sülhə nail olmaq istiqamətində ABŞ ilə tərəfdaşlığını yüksək qiymətləndirir. "30 ildən artıq diplomatik münasibətlərimiz müddətində əlaqələrimiz əhəmiyyətli dərəcədə inkişaf edib. Biz ümidvarıq ki, ikitərəfli prioritetlərimiz, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlığımız, iqtisadi münasibətlərimiz və enerji inkişafı üzrə tərəfdaşlığımız bundan sonra da davam edəcək. ABŞ Azərbaycan və Ermənistan arasında möhkəm sülhü dəstəkləməkdə davam edir. Davamlı sülh Cənubi Qafqaz regionunun daha firavan olmasını təmin edəcək və ABŞ ilə əməkdaşlıq üçün daha geniş imkanlar yaradacaq. İndi sülhə nail olmağın və Cənubi Qafqaz xalqları üçün yeni firavanlıq dövrünə qədəm qoymağın vaxtıdır. Biz qarşıdakı illərdə və onilliklər ərzində daha dərin tərəfdaşlığa ümid edirik", - Donald Tramp bildirib.

Məktubdan da göründüyü kimi, ABŞ-Azərbaycan münasibətlərində energetika, terrora qarşı mübarizə, iqtisadi münasibətlər və təhlükəsizlik məsələləri prioritet təşkil edir. Hansı ki, bu istiqamətlər üzrə Vaşinqtonla əməkdaşlığın dərinləşdirilməsi Bakının da maraqlarına uyğundur.



Donald Tramp

## Senatordan təşəkkür

Bu kontekstdə ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deynsin Azərbaycana səfəri və Prezident İlham Əliyevlə apardığı müzakirələr də diqqət çəkir. Qəbul zamanı senator ABŞ ilə Azərbaycan arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğunu deyib. Əfqanıstanda Amerika Birləşmiş Ştatları və Azərbaycan əsgərlərinin çiyin-çiyinə xidmət etdiyini, Kabil hava limanının təhlükəsizliyinə cavabdeh olan Azərbaycan sülhməramlı qüvvələrinin Əfqanıstanı tərk edən ən sonuncu hərbi kontingent olduğunu xatırladan Stiv Deyns oradan mülki və hərbi şəxslərin təxliyəsində azərbaycanlı hərbçilərin mühüm rol oynadıqlarını vurğulayıb və buna görə də ayrıca minnətdarlığını bildirib. O, Azərbaycana və Mərkəzi Asiya ölkələrinə ABŞ Senatının nümayəndələri tərəfindən səfərlərin intensivləşdirilməsinin vacibliyinə toxunub. Dövlət başçısı Donald Trampın birinci prezidentliyi dövründə Azərbaycanla əlaqələrin inkişafına göstərdiyi diqqətin də təqdir olunduğunu deyib.

Bu fikirlər Tramp Administrasiyasının Bayden hökumətindən fərqli olaraq, Azərbaycanın tərəfdaşlıq münasibətləri çərçivəsində vaxtilə atdığı addımları unutmadığının, əksinə yüksək dəyər verdiyinin göstəricisidir. Ağ Ev rəhbərliyinin mövcud beynəlxalq proseslər fonunda Azərbaycanın əhəmiyyətini xüsusi vurğulaması ikitərəfli münasibətlərin inkişafına da müsbət təsir göstərir. Qeyd edək ki, hazırda Azərbaycan həm də bir çox beynəlxalq tranzit layihələrinin əsas halqası sayılır. Prezident İlham Əliyevin senator Stiv Deynslə görüşündə bu məqam da xüsusi qeyd edilib.

## ABŞ rəhbərliyinin Cənubi Qafqaza marağı artmaqdadır

Bakı-Vaşinqton diplomatik təmaslarının intensivliyi bununla da yekunlaşmır. Belə ki, ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavin köməkçisi Coşua Hak və Dövlət Departamentinin Avropa üzrə baş müşaviri Uayett Toelke də Bakıya gəlib. ABŞ səfirliyinin məlumatında qeyd edilir ki, onlar Azərbaycana yüksək səviyyəli rəsmilərlə görüşmək və ABŞ-nin maraqlarını, iqtisadi rifahı və regional təhlükəsizliyi təşviq edən ikitərəfli dialoqu davam etdirmək məqsədilə səfər ediblər.

Göründüyü kimi, ABŞ rəhbərliyinin Cənubi Qafqaz bölgəsinə marağı artmaqdadır. Bölgədə isə əsas söz sahibinin Azərbaycan olduğu, yeni əməkdaşlıq imkanlarının məhz Bakının yaratdığı reallıqlara uyğunluğu əsas amildir. Ağ Ev rəhbərliyi bu reallıqları nəzərə alır və bölgədə əsas tərəfdaş qismində məhz Azərbaycanı görür.

# GÜC, QÜRUR VƏ QARDAŞLIQ ZİRVƏSİ

Türkiyə-Azərbaycan-Pakistan ittifaqı institusionallaşma istiqamətində irəlilədilir. Bu əməkdaşlıq formatının qalıcı olması üçün mühüm qərarların qəbul edilməsi gözlənilir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın işğaldan azad edilmiş əraziləri, Laçın şəhəri Müstəqillik Günündə möhtəşəm tarixi anlara şahidlik etdi. Dövlət müstəqilliyimizin 107-ci ilinin Laçında qeyd edilməsi, bu tədbirlərdə Prezident İlham Əliyevlə yanaşı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin də iştirakı dünyaya Bakı-Ankara-İslamabad birliyinin gücünü və əzəmətini nümayiş etdirdi.

### SAYCA DOQQUZUNCU HAVA LİMANI

Laçının yaraları sürətlə sağalır. İndi işğaldan azad Laçında Azərbaycan bayrağı dalğalanır. Laçın bu gün dünyanın nüfuzlu ictimai-siyasi xadimlərini, dövlət və hökumət başçılarını qonaq edir. Ölkə üzrə sayca doqquzuncu, işğaldan azad edilmiş ərazilərdə isə inşa edilən üçüncü beynəlxalq hava limanının Laçında açılması, onun ilk sərnişinlərinin Türkiyə Prezidenti və Pakistan Baş naziri olması isə dünyaya, dost-düşmənə ünvanlanan mesaj idi. Azərbaycanın gücünün, qüdrətinin, müstəqilliyinin əbədi olacağının mesajı.

### MÜHÜM SİYASİ PLATFORMAYA DA EV SAHİBLİYİ

Laçın həm də mühüm siyasi platformaya ev sahibliyi etdi. Laçında Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə növbəti Zirvə görüşü keçirildi. Bu görüş dünyanın diqqətlə izlədiyi, Cənubi Qafqaz, Yaxın və Orta Şərq, həmçinin Mərkəzi Asiya kimi geniş bir coğrafiyaya mühüm təsirləri olacaq Zirvə kimi dəyərləndirilir. Çünki söhbət maraqları, məqsədləri tam olaraq bir-biri ilə uzlaşan, ən çətin məqamlarda belə bir-birilərinə təmənnasız, tam olaraq hərtərəfli dəstək verən üç ölkənin birliyindən gedir.



## SÜLHÜ VƏ SABİTLİYİ GÜCLƏNDİRƏN ƏMƏKDAŞLIQ

Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalət tərəfində olub: "2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik".

Dövlət başçısı bildirib ki, Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib: "Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır".

Prezident vurğulayıb ki, müdafiə sahəsində əməkdaşlıq tərəfdaşlığımızın önəmli istiqamətlərindən biridir. Birgə hərbi təlimlər və hərbi-texniki sahədə layihələr silahlı qüvvələrimizin potensialını gücləndirib. Bizim hərbi əməkdaşlığımız geniş coğrafiyada sülhü və sabitliyi gücləndirir.

Azərbaycan Prezidenti üçtərəfli əməkdaşlıq formatının yeni istiqamətlərini də qeyd edib: rəqəmsal innovasiyalar, süni intellekt və kosmik texnologiyalar.

### 1,5 TRİLYON DOLLARLIQ İQTİSADİ GÜC

Prezident Rəcəb Tayyib Ərdoğanın üç ölkənin sahib olduğu imkanlar və iqtisadi güclə bağlı səsləndirdiyi fikirlər də diqqət çəkir. Onun sözlərinə görə, qarşılıqlı sevgi, hörmət və etimada əsaslanan, eyni mədəniyyət mühitindən bəhrələnən ortaq idealları bölüşən üç qardaş ölkəyik: "Təxminən 350 milyon əhaliyə və 1,5 trilyon dollar iqtisadi gücə sahib ölkələrimizin arasındakı bağları daha da gücləndiririk. Birliyimizi strateji tərəfdaşlığa çevirməyə yönəlmiş hər bir addımın arxasında olduğumuzu xüsusilə vurğulamaq istəyirəm. Bölgəmizdə baş verən hadisələr ölkələrimiz arasındakı həmrəyliyin nə qədər vacib olduğunu gündən-günə daha aydın şəkildə göstərir".

Türkiyə Prezidenti qeyd edib ki, coğrafiyamızda və onun hüdudlarından kənarda təhlükəsizlik təhdidlərindən tutmuş iqtisadi çətinliklərə, enerji və qida böhranlarına qədər bir çox sınaqlarla eyni anda üz-üzəyik: "Bu çətinliklər qarşısında həmrəylik və birgə fəaliyyət məqsədimizin inkişaf etdirilməsini bir seçim deyil, zərurət olaraq görürük".



### ZAMANINDA TƏŞKİL EDİLƏN ƏMƏKDAŞLIQ FORMATI

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin çıxışındakı məqamlar da İslamabadın üçtərəfli əməkdaşlıq formatının gücləndirilməsinə nə dərəcədə mühüm əhəmiyyət verdiyini göstərir. Onun sözlərinə görə, bizim gücümüz həmrəyliyimizə və qarşılıqlı hörmətə əsaslanır. Bugünkü dünyamızda ciddi çağırışlar, silahlı münaqişələr, iqlim dəyişikliyi, xəstəliklər və iqtisadi böhranlar mövcuddur. Bu səbəbdən ölkələrimiz bir araya gələrək münaqişəni rədd edir və mərhəməti seçir: "Bu üçtərəfli format həm zamanında təşkil edilib, həm də mühüm əhəmiyyətə malikdir. Bu, bizə zəruri siyasi məsuliyyətlə yanaşı, qarşılıqlı maraq doğuran sahələrdə birgə irəliləmək üçün təkan verir".

### ƏN ÖNƏMLİ MÜDAFİƏ QALXANLARINDAN BİRİ

Uzun illər haqqında danışılan Türkiyə-Azərbaycan-Pakistan ittifaqı institusionallaşma istiqamətində irəlilədilir. Zirvə görüşündə də vurğulandığı kimi, bu əməkdaşlıq formatının daimi və qalıcı olması üçün mühüm qərarların qəbul edilməsi gözlənilir. Çünki üçtərəfli birliyin mahiyyətcə yeni müstəviyə qaldırılması bölgəmizdə və daha geniş coğrafiyada milli maraqlarımızı, sülhü və inkişafı təhdid edən qüvvələrə qarşı ən önəmli müdafiə qalxanlarından biridir. Əldə edilmiş tarixi fürsət Azərbaycan-Türkiyə-Pakistan ittifaqının beynəlxalq səviyyədə güclü təsir mexanizmlərinə sahib olmasını da şərtləndirir.

# DÖYÜLƏN DÖVLƏT BAŞÇISI SİNDROMU

**Fransanın Makronlu illəri tarixə istehza, rəzillik, yalan, ikiüzlülük dövrü kimi düşəcək. Parisin hazırkı reallığı məhz budur: arvadı tərəfindən dünyanın gözləri önündə döyülən prezident.**



RÜSTƏM QARAXANLI

Fransa lideri Emmanuel Makronun prezident təyyarəsində həyat yoldaşı Bricitdən şillə "yeməsi" onun ictimaiyyət və KİV qarşısında ilk və güman ki, son döyülmə səhnəsi deyil. Bunadək Makron küçədə öz vətəndaşlarından qapaza da "qonaq olub", yumurtaya da. Ancaq birinci ledinin şilləsi fransız dövlət başçısının həyatının daha bir məqamına işıq salır: əgər rəsmi səfərdə olan Makron hətta təyyarədə belə arvadı tərəfindən döyülürsə, görəsən, evdə nələr baş verir?

### QAZANILMIŞ REFLEKS

Kişilərin qadınlar tərəfindən zorakılığa məruz qalmaları son zamanlar Qərb gündəminin ən aktual mövzularından birinə çevrilib. BMT-nin apardığı araşdırmalardan doğan statistikaya görə, dünyada əri tərəfindən döyülən hər 15 qadına arvadının zorakılığına məruz qalan 8 kişi düşür. Daha bir statistikaya görə, həyat yoldaşını öldürən hər 100 kişiyə ərinin həyatına son verən 75 qadın düşür.

Ötən bazar günü Cənubi-Şərqi Asiya dövlətlərinə turne ərzində Hanoy hava limanında təyyarədə arvadı tərəfindən fiziki təzyiqə məruz qalan Makronun güman ki, öz şiddət statistikası var və bu, sadəcə ehtimal deyil. Əgər o, prezident səfəri kimi vacib dövlət tədbirində komanda üzvlərinin və ictimaiyyətin gözləri qarşısında həyat yoldaşının təcavüzünə məruz qalırsa, görəsən, evdə nələr baş verir? Əlbəttə, ər və ya arvad tərəfindən döyülmə hallarının bir psixoloji çalarları da var. Müasir insan haqları və gender bərabərliyi prizmasından baxanda, qadının kişi tərəfindən döyülməsi ilə ərin arvad şiddətinə məruz qalması arasında bir bərabərlik işarəsi qoymaq lazım gəlir. Ancaq faktdır ki, hər iki halda şəxsiyyətin alçaldılması baş verir. Belə görünür ki, Makron üçün nə döyülmə, nə də alçalma xüsusi komplekslərə səbəb olmur. Çünki bu nə ilkdir, nə də Bricit Makronun nümayiş etdirdiyi kimi, son. Qazanılmış refleksə malikdir.



## Müəllim şilləsi, şagird stresi

Makronun təyyarədə arvadı Bricit tərəfindən şillələnməsi belə bir sualı aktuallaşdırır: onun ailə həyatında baş verənlər dövlət əhəmiyyətli qərarlar qəbul etməsinə hansı təsiri göstərir? Uğursuz, çəlimsiz və fərasətsiz adamlardan tutmuş əzazil manyaklar və qatillərədək hər bir şəxsin əməli onun uşaqlıq illərində yaşadığı komplekslərdən qaynaqlanır. Ailədə valideynləri tərəfindən şiddətə məruz qalan şəxslər yetkin həyatda əksər hallarda qeyri-adekvat davranışlarla yadda qalırlar. Makronun özəl həyatında baş verənlər onun yaşadığı komplekslərin prezidentlik fəaliyyətinə nə qədər təsir göstərdiyinin üzərindən pərdələri götürmüş olur. Bricit onun həyat yoldaşı olmaqla yanaşı, həm də keçmiş müəllimidir. Yəni Makronu arvadından qorxan kişilər kateqoriyasına salmaqla yanaşı, onun müəllimi qarşısında bir şagird stresi keçirən yeniyetmə olduğunu da unutmamalıyıq.

Makronun həyat yoldaşının digər nikahından olan övladları az qala prezidentin özü yaşdadır. Onun ögey oğullarının yanında arvadına "gözün üstündə qaşın var" deməsi mümkündürmü? Makronun bu kimi hallarda tək arvadından deyil, oğullarından da şillə "yeməməsi"nə təminatı varmı? Yaxud ailə daxilində döyülən, hökmü olmayan, arvadından bütün dünyanın gözləri qarşısında təyyarədə şilləyə məruz qalıb sonra bunun bir "zarafat" olduğunu utanmadan malalamağa çalışan bir dövlət başçısının seçicilərini, həmkarları və tərəfdaşlarını aldatmaması mümkündürmü?

## Döyülən prezident, döyülən dövlət

Arvadı tərəfindən döyülən kişi cəmiyyətdə, işdə, başqa kişilərlə ünsiyyətdə özündən hansı səviyyədə əmin ola bilər? Bu da bir araşdırma mövzusudur. Azərbaycanda belə hallarla bağlı kifayət qədər sarkastik məzmunlu deyimlər və atalar sözləri var. Ancaq Makronun halı onunla qeyri-adidir ki, o, bir kişi olmaqla yanaşı, həm də dövlət başçısıdır. Bu reallıq ortaya düşündürən suallar çıxarır: Makronun dövlət əhəmiyyətli qərarları qəbul edərkən arvadının təsirinə, özü də fiziki təsirinə məruz qalma ehtimalı nə qədər böyükdür? Bricit dövlət idarəçiliyinə təsir edirmi? Edirsə, fiziki gücdən yararlanırmı?

Makronun bir prezident olaraq küçədə və tədbirlərdə vətəndaşları tərəfindən döyülməsi, təhqirlərə məruz qalması, arvadından şillələr görməsi onun şəxsi



faciəsi ilə yanaşı, Fransa dövlətinin zəifliyinin göstəricisidir. Bu rəzil gündəm BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan dövlətin acı reallığıdır. Dövlət öz lideri ilə güclü olur. İstəyir nüvə silahına sahib ol, istəyir iqtisadi gücə - kimdir səninlə hesablaşan? Əgər sən ailədaxili auraya sahib çıxa bilmirsənsə, nümayiş etdirdiyin geosiyasi hikkənin nə mənası var?

Şübhə yoxdur ki, Fransanın Makronlu illəri tarixə istehza, rəzillik, yalan, ikiüzlülük dövrü kimi düşəcək. Fransa kimi köklü dövlətçilik tarixinə malik bir ölkənin bu durumu onun vətəndaşları ilə yanaşı, həm də dünya üçün qeyri-adekvat situasiyaya səbəb olur. Bir dövlət yalnız tarixinə istinadla güclü ola bilməz. Güc ilk növbədə hörmət mənbəyi, ünvanıdır. İçiboş hikkə və kaprizlərin əsiri olan dövlətə isə hətta zəngin tarix də kömək etməz. Afrikadakı mövqelərini itirən və ənənəvi müstəmləkələrindən növbəli şəkildə qovulan, Okeaniyadakı koloniyalarında hörmət və nüfuzunu əldən verən, geosiyasi proseslərdə resurs və alətləri taqətdən düşən Fransanın hazırkı reallığı məhz budur: arvadı tərəfindən dünyanın gözləri önündə döyülən prezident.

# TRAMPIN QEYRİ-ADİ İXTİSARLARI

Donald Trampın ABŞ Prezidenti kürsüsünə əyləşməsindən dörd aydan artıq vaxt keçir. Onun yanvarda hakimiyyətə gəlişindən bəri ölkədə 130 minə yaxın dövlət işçisi işdən çıxarılıb. Kütləvi ixtisarlar 30-a yaxın departamentə təsir edib.



AZƏR NURİYEV



## 130 MİNƏ YAXIN DÖVLƏT İŞÇİSİ İXTİSAR OLUNUB

Donald Tramp qalmaqallı, sensasion və müzakirələrə yol açan qərarları ilə təəccübləndirməkdə davam edir. "Daxildən güclü olaq" konsepsiyası ilə çıxış edən Tramp hesab edir ki, qlobal miqyasda siyasi və hərbi iştirakın məhdudlaşdırılması ölkənin sənaye potensialını gücləndirəcək, iqtisadiyyatı şaxələndirəcək və daxili bazarın inkişafına geniş imkanlar yaradacaq. Bu strategiyanın əsas tərkib hissəsi kimi ölkə daxilində işsizlərin sayının azaldılması, xüsusilə də milyonlarla insanın əmək bazarına inteqrasiyası prioritet elan edilib. Lakin bu, uğurlu olacaqmı? Bəziləri hesab edir ki, məlum yanaşma ABŞ-nin dünyadakı liderlik mövqeyinin zəifləməsinə səbəb ola bilər. Tramp tərəfdarları isə hesab edirlər ki, əksinə, bu siyasət mövcud zəiflikləri aradan qaldıracaq, ölkəni yenidən dünyanın aparıcı super gücünə çevirəcək.

Yeri gəlmişkən, Trampın ABŞ prezidenti kürsüsünə əyləşməsindən dörd aydan artıq vaxt keçir və bu müddətdə ən maraq doğuran qərarlardan biri şübhəsiz ki, müxtəlif dövlət qurumlarında aparılan ixtisarlarla bağlıdır. Yanvardan bəri ölkədə 130 minə yaxın dövlət işçisi işdən çıxarılıb. Məlumata görə, kütləvi ixtisarlar 30-a yaxın departamentə təsir edib, lakin ən çox ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) zərər çəkib. Eyni zamanda, Təhsil Nazirliyi işçilərinin 51%-ni ixtisar edib, 12 regional idarədən yeddisini bağlayıb. Bu ixtisarların nəticələri artıq amerikalılar tərəfindən hiss olunur və hökumətin təhsil, səhiyyə və ictimai təhlükəsizlik sahələrində öz vətəndaşlarının maraqlarını təmin etmək qabiliyyətini sual altına qoyur. Maraqlıdır ki, Tramp bu addımlarını bürokratiya ilə mübarizə adı altında həyata keçirir. "Bu ixtisarlar nəyə hesablanıb?" sualına verilən cavablar müxtəlifdir. Bəziləri bu qənaətdədirlər ki, bu, dövlət büdcəsinə qənaət etmək üçündür. Digərləri hesab edirlər ki, bu, daha çox əvvəlki komandaya bağlı olan şəxslərin uzaqlaşdırılmasına yönəlib.




### HƏDƏFDƏ KƏŞFİYYAT ORQANLARI DA VAR

İş o yerə çatıb ki, ixtisarlar Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) və ölkədəki digər kəşfiyyat orqanlarını da əhatə etməyə başlayıb. Bildirilir ki, bu sistemdə təxminən 1200 nəfər ixtisar ediləcək. Ümumilikdə, MKİ-də təxminən 22 min nəfər çalışır. ABŞ administrasiyası kəşfiyyatçıların sayının azaldılması ilə bağlı planları barədə artıq Konqresi məlumatlandırıb. Prosesin bir neçə il ərzində baş tutması planlaşdırılır.

Artıq qanunvericilər Trampı bu addımları ilə əlaqədar sərt tənqid etməyə başlayıblar. Senatın Xüsusi Kəşfiyyat Komitəsində yüksək səviyyəli demokrat Mark Uorner Tramp administrasiyasının hazırladığı planları tənqid edib. Qanunverici bildirib ki, atılan addımlar ölkənin təhlükəsizliyini zəiflədəcək.

Tramp administrasiyası NASA-nın 2026-cı il büdcəsinin təxminən dörddə birini də ixtisar etmək niyyətindədir. Xərclərə qənaət planı Beynəlxalq Kosmik Stansiyada ekipajın sayının və aparılan tədqiqatların həcminin azaldılmasını nəzərdə tutur. Trampın büdcə təşəbbüsünə əsasən, NASA-nın xərclərinin ümumilikdə 508 milyon dollar azaldılması təklif edilir.

## 80 İLLİK ƏNƏNƏYƏ SON QOYULUR

Dövlət aparatında təmizləmələr də davam edir. Onun son qərarlarından biri Prezident yanında xarici siyasət və təhlükəsizlik sahəsində nazirlik və qurumların fəaliyyətinin əlaqələndirilməsinə cavabdeh olan məsləhətçi orqan - Milli Təhlükəsizlik Şurasının (MTŞ) 350 əməkdaşının təxminən yarısını inzibati məzuniyyətə göndərməsi olub. 1947-ci ildən mövcud olan MTŞ-nin rolunun əhəmiyyətli dərəcədə azaldılması planlaşdırılır. ABŞ Prezidenti onu keçmişin qalığı və "dərin dövlətin" nümayəndəliyi hesab edir, siyasi kursuna kifayət qədər loyal olmamaqda günahlandırır. Qeyd edək ki, MTŞ 1947-ci ildə Prezident Harri Trumenin administrasiyası zamanında Milli Təhlükəsizlik Aktına uyğun olaraq yaradılmışdı. Şura Prezident Administrasiyasının mühüm hissəsinə çevrilərək, ölkənin qarşısında duran məsələlərin həllinə kompleks yanaşmanı təmin edirdi. MTŞ xarici siyasətin hazırlanması və əlaqələndirilməsində, milli təhlükəsizlik məsələləri üzrə tövsiyələrdə, böhran vəziyyətlərinə reaksiyada və xaricdəki mühüm əməliyyatların əlaqələndirilməsində əsas orqan idi. Şura faktiki olaraq, federal hökumətin bütün diplomatik, hərbi və iqtisadi alətlərini vahid sistemdə birləşdirir. Con Kennedinin prezidentliyi dövründə MTŞ Karib böhranının aradan qaldırılmasında həlledici rol oynamışdı. MTŞ-nin işinə ənənəvi olaraq Pentaqon, Dövlət Departamenti, kəşfiyyat xidmətləri də daxil olmaqla, müxtəlif departament və agentliklər cəlb olunur.

### HARVARD UNİVERSİTETİNİN DƏ PULU KƏSİLİR

Ən maraqlı gediş isə Tramp administrasiyasının Harvard Universitetinin federal maliyyələşdirilməsinin 60 milyon dollar məbləğində azaldılmasını bəyan etməsidir. ABŞ Səhiyyə və Sosial Xidmətlər Nazirliyinin "X" sosial şəbəkəsindəki məlumatında deyilir ki, qurum "ali təhsil sahəsində vətəndaş hüquqlarının qorunması üçün addımlar atıb". Fələstini dəstəkləyən nümayişləri ilə tanınan universitetlərdən biri olan Harvard antisemit əhval-ruhiyyədə və irqi ayrı-seçkilik problemini həll edə bilməməkdə günahlandırılır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# “O XALQ Ki, UNUDUR, ONUN FACİƏLƏRİ ÇOX OLUR”

Professor Anar İsgəndərli: “Dünənə qədər bizi neft-qaz tanıdırdı. 44 günlük müharibədən sonra dünya öyrəndi ki, insan öz Vətənini necə sevə bilər! Siz bu gün fəxr edəndə “Azərbaycan” şeiri ilə yox, Azərbaycan reallığı ilə fəxr edirsiniz”.





Fotolar: Əjdər İbrahimov/Global Media Group

“Mən orta məktəbdə oxuyanda sual verirdilər ki, Vətənin haradır? Deyirdim ki, SSRİ. Sizə bu sual veriləndə Azərbaycan deyirsiniz. Mən tamam başqa bir himn oxuyurdum, siz isə bu gün öz Vətənimizin himnini oxuduğunuz üçün xoşbəxtsiniz. Xoşbəxtsiniz ki, üçrəngli bayrağımız hər birinizin ürəyindədir və deyirsiniz ki, “Bir kərə yüksələn bayraq bir daha enməz!”

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, tarix elmləri doktoru, professor Anar İsgəndərli Bakı Şəhəri üzrə Təhsil İdarəsinin “Kaspi” qəzeti ilə birgə reallaşdırdığı “Məktəbdə” layihəsinin qonağı olarkən çıxışına bu sözlərlə başladı.

189-190 nömrəli tam orta məktəbdə baş tutan görüş Azərbaycan Xalq Cümhuriyyətinin 107-ci ildönümünə təsadüf etdi.

### MÜSTƏQİL VƏ SUVEREN DÖVLƏTİN BALALARI

“Siz müstəqil və suveren bir dövlətin balalarısınız”, - deyə millət vəkili auditoriyaya səsləndi: “Dünyada 8000-dən artıq xalq və etnik qrup var. Onlardan cəmi 200-ə qədərinin müstəqil dövləti var. Həmin 200 dövlət içərisində Azərbaycan da var. Siz o müstəqil dövlətin vətəndaşısınız. Biz millət olaraq yüksəkdə duran xalqıq. 44 günlük müharibə bunu bir daha dünyaya göstərdi. Bu torpaq üçün şəhid olanlarımız var. Onlar da dünən bu partada oturanlar idi. Onlar da elə qabaqda oturan şagird yoldaşının köynəyini yazan idi, partanı cızan idi. Dünən şagird idilər, sonra tələbə oldular. Qələmi yerə qoydular, süngünü götürdülər və qalib gəldilər. Siz onların ideyalarını uğurla davam etdirən şagirdlərsiniz”.

### “GƏLƏCƏK SİZİN ƏLİNİZDƏDİR!”

Millət vəkili gəncliyi yüksək dəyərləndirdiyini bildirdi: “Gənc yaşlarında sambo üzrə Azərbaycan çempionu idim. Heç kimdən qorxmurdum. İndi gənclərin yanından keçəndə “birdən biri itələyər”, deyə düşünürəm. Gənclik başqa şeydir. Bu torpağı gənclik xilas etdi. Dağlarda, dərələrdə qəhrəmanlıq göstərdi. Gəncliyin elədiyini heç kim edə bilməz. Gənclik haqqında “20 il bundan qabaq yaxşı idi”, demək yanlışdır. 19-cu əsr heç vaxt 20-ci əsrdən irəli gedən əsr ola bilməz. Bu gün Azərbaycan gəncliyi hamıya dedi ki, mən qəhrəmanam. Ali Baş Komandan əmri verib, mən yerinə yetirmişəm. Dünyada bütün siyasi hadisələrə təsir edən gənclikdir. Siz müstəqil Azərbaycanın fidanlarısınız. Gələcək sizin əlinizdədir!”

Tarixçi alim tədris və tədqiq etdiyi elm sahəsini xarakterizə etdi: “25 ildən artıqdır ki, Bakı Dövlət Universitetində kafedra müdiriyəm. 1918-20-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı ilk dəfə mən tədqiq etdim. Nələrin şahidi oldum? Bir daha gördüm ki, ermənilər nələr törədib. Göz yaşı tökməmək üçün “nə etməli?” sualına cavab axtardım. Tarix elminin digər elmlərdən bir üstünlüyü var - tarix ibrətdir. Əgər 1905-1906-cı illərdə bilsəydik ki, erməni bizi niyə qırır, onda 1918-1920-ci illər olmayacaqdı. O illərdə bilsəydik, onda gərək 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində 20 faiz torpaqlarımız işğal olmayaydı. Nə üçün oldu? Çünki unutduq. O xalq ki, unudur, onun faciələri çox olur”.

HAZIRLADI



Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

> *“Gəncliyin elədiyini heç kim edə bilməz. Gənclik haqqında “20 il bundan qabaq yaxşı idi”, demək yanlışdır. 19-cu əsr heç vaxt 20-ci əsrdən irəli gedən əsr ola bilməz.”*





### COĞRAFİ MƏFHUMDAN SİYASİ MƏFHUMA

Tarixçi alim Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi islahatlara toxunaraq qeyd etdi ki, cəmi 23 ay yaşayan dövlət 350 ilkə imza atıb: “Müsəlman Şərqində ilk cümhuriyyət coğrafi məfhum olan Azərbaycan ifadəsini siyasi məfhuma çevirdi. Dövlət Albaniya, Şəddadi, Rəvvadi, Səfəvi, Qaraqoyunlu yox, Azərbaycan adlandı. Azərbaycan Parlamentini yaratdı. 1919-cu ilin iyulunda ilk dəfə Azərbaycan Parlamenti kişi və qadın bərabərliyini elan etdi. İlk universitet, ilk hərbi məktəbin yaradılması, xaricə oxumağa 100 tələbənin göndərilməsi - bunlar hamısı cümhuriyyətin uğurlarıdır. 40 minlik bir ordu yaradıldı. 23 ay ərzində bundan artıq nə etmək olardı? Təəssüf ki, 1920-ci ilin aprel işğalı hər şeyi yarımçıq qoydu!”

Millət vəkili Azərbaycanın bu gün dünyada tanınmasına da diqqət çəkdi: “Dünənə qədər bizi neft-qaz tanıdırdı. 44 günlük müharibədən sonra dünya öyrəndi ki, insan öz Vətənini necə sevə bilər! Siz bu gün fəxr edəndə “Azərbaycan” şeiri ilə yox, Azərbaycan reallığı ilə fəxr edirsiniz. Bizim əsgər torpaqlarımızı işğaldan azad etdi. Bizim də adımız qaliblərin sırasına düşdü. Siz bu gün qalib ölkənin şagirdlərisiniz. Bu gün bayrağımız bayraqlar içərisində seçilir”.

Millət vəkili Ulu Öndər Heydər Əliyevi böyük şəxsiyyət kimi xatırladı: “Ulu Öndər gəncləri SSRİ-nin hər yerinə oxumağa göndərirdi. Yeni ali məktəblər yaradırdı. Heydər Əliyev yeganə türk müsəlmandır ki, SSRİ adlı nəhəng dövləti idarə edib. 1991-ci ildə biz dövlət müstəqlliyimizi bərpa etdik, amma onun şirinliyini dada bilmədik. Torpaqlarımızın 20 faizi işğal olundu. Bir milyon qaçqın, bir yandan da vətəndaş müharibəsi təhlükəsi. Bütün bunlar ölkəni süquta aparırdı. Nə yaxşı ki, Heydər Əliyev gəldi, ölkəni bu çətinliklərdən çıxardı”.

### “VALİDEYNLƏRİNİZİN, MÜƏLLİMLƏRİNİZİN QƏDRİNİ BİLİN”

Tarixçi alim məktəblilərə tövsiyələrini də verdi: “İllər keçəcək, hər biriniz vəzifə sahibi olacaqsınız. Valideynlərinizin, müəllimlərinizin qədrini bilin. Bir-birinizə hörmətlə yanaşın. Azərbaycan bizim dövlətimizdir. Hamımız bu dövləti sevməliyik. Dininizə hörmətlə yanaşın. Dinimiz bizə halallığı, ədaləti, qəhrəmanlığı, şəxsiyyət olmağı öyrədir. Kamil vətəndaş kimi yetişin, ailə üçün şərəfli övlad olun”.

# EV ALMAQ ÜÇÜN ƏN SƏRFƏLİ VARİANTLAR

Bu gün torpaq alıb ev tikmək sərfəli deyil. Köhnədən ərsəyə gələn əmlakı almaq və üzərində müəyyən tikinti işləri aparmaq daha sərfəlidir. Çünki tikinti materialları bahalaşdığından ev tikmək baha başa gəlir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Bakı şəhərində öz mənzilinə sahib olmaq bir çox gəncin əsas hədəflərindən biridir. Lakin artan qiymətlər, şərtlər bu arzunu reallığa çevirməyi çətinləşdirir. Son vaxtlar əmlak qiymətlərinin fantastik şəkildə artması ya ev almaq istəyənləri bu arzudan uzaqlaşdırır, ya da daha ağıllı və strateji qərarlar verməyə vadar edir. Maraqlıdır, bir gənc mənzil şəraitini yaxşılaşdırmaq istəyirsə, hansı variantlardan istifadə edə bilər?

Şəhərin güvənilən tikinti şirkətlərindən biri daxili kreditlə üç illik kreditlər təklif edir. Lakin evlərin iki-üç il ərzində hazır olacağını bildirirlər. Üçotaqlı mənzil üçün 48 853 manat ilkin ödəniş verməli, 36 ay ərzində 3166 manat ödəməlisiniz. Mənzilin nağd dəyəri isə 162 843 manat təşkil edir. Şirkətlərin uzunmüddətli ipoteka şərtləri də mövcuddur. Mənzillərin bir kvadratmetri 1900-2000 manatdan başlayır. Təbii ki, yerləşmə yerinə görə qiymətlər dəyişir. Şəhərin mərkəzinə doğru gəldikdə, ilkin ödəniş 60-70 minə qədər artır. Digər tikinti şirkəti isə 20-30 faiz ilkin ödənişlə kvadratmetri 1900-2290 manatdan başlayan qiymətlərlə mənzil təqdim edir. Tikinti şirkətlərinin daxili kreditlərinin orta hesabla illik faizi 10 faizdir. İlkin ödəniş 10-30 faiz arasında dəyişir. Müqavilə birbaşa tikinti şirkəti ilə imzalanır. Müddəti maksimum 20 ildir.

## MİDA, İPOTEKA KREDİTLƏRİ, BANK ÜSULU...

Həmçinin ev almaq istəyən gənc ailələr üçün digər üsullar da mövcuddur. Bunlardan ən sərfəlisi Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) güzəştli mənzil layihəsidir. Əsas üstünlükləri ondan ibarətdir ki, evlərin qiymətləri bazar qiymətindən aşağıdır və illik dörd faizlə 30 ilədək güzəştli ipoteka krediti imkanı verir. Mənzillər tam təmirli təqdim edilir.

İkinci üsul dövlət ipoteka kreditləridir. Güzəştli ipoteka illik dörd faizlə 30 ilədək müddətdə, adi ipoteka isə illik 6-8 faizlə 25 il müddətinə qədər verilir. İlkin ödəniş kimi seçdiyiniz mənzilin qiymətinin ən azı 10 faizini ödəməlisiniz.

Növbəti üsul kommersiya banklarının ipoteka kreditləridir. Dövlət ipotekası ilə müqayisədə bankların faiz dərəcələri yüksəkdir. İllik 10-15 faiz arasında dəyişir və 25 il müddətinə verilir.

### İLKİN ÖDƏNİŞİ SƏRFƏLİ OLAN VARİANT

Mənzil sahibi olmaq istəyənlər üçün növbəti layihə İpoteka və Kredit Zəmanət Fondunun kirayə mənzil layihəsidir. Bu layihə Bakı, Abşeron, Sumqayıt, Masazırda təqdim olunub. Metronun "Dərnəgül" stansiyası yaxınlığında yerləşən sonuncu layihədə birotaqlı evlərin aylıq qiymətləri 954, ikiotaqlı evlərin qiyməti isə 1300 manatdan başlayır. Bu mənzillərdə kirayə müddəti bitdikdən sonra mənzil mülkiyyətə keçirilir. Bu layihəni digərlərindən fərqləndirən mühüm cəhət ilkin ödənişin az olmasıdır. İlkin ödəniş aylıq qiymətlərin 12 mislidir.

### "HAZIRDA EV ALANLAR UDUZMAZ"

Əmlak məsələləri üzrə ekspert Elnur Azadov deyir ki, daşınmaz əmlak qiymətlərində bahalaşma müşahidə olunub: "Növbəti illərdə də qiymət artan templə davam edəcək. Bu il qiymət artımına söküntü işlərinin aparılması, ipoteka kreditlərinin verilməsi təsir etdi. Amma bu qiymətlərlə də hazırda ev alan şəxslər uduzmaz".

Mütəxəssis deyir ki, hazırda qiymətlər infrastrukturun inkişaf etdiyi yerlərdə yüksəkdir.


Elnur Azadov

## "Yeni tikililər bazar qiymətindən xeyli yüksəkdir"

Mənzil axtarışında olanlar düşünürlər ki, köhnə tikililərdən mənzil almaq daha sərfəlidir. Mütəxəssis bildirir ki, hazırda yeni tikililərin alıcısı daha çoxdur: "Yeni tikili daha müasir olduğu üçün onun alıcısı çoxdur. Köhnə tikililərdən mənzil almaq istəyənlər daha çox plana düşəcək ərazilərdən almağa çalışır. Çünki plana düşən ərazilərdən alınan əmlakla sonra onun yerində yenidən ərsəyə gələn mənzilin qiymətləri arasında ən az 25-30 faiz fərq olur".

Həmsöhbətimiz bildirir ki, dövlət ipotekası ilə ev almaq daha sərfəli hesab olunur: "Dövlət ipotekası şərtlərinə hər kəs cavab vermir. Amma daxili kreditlə ev almaq daha rahatdır. İlkin ödənişi çox etdikdə, bəzən endirim almaq imkanınız da olur. Amma ipotekanın üstünlüyü odur ki, köhnə tikililərdən də ev almaq mümkündür. Daxili kreditlərə 2026-cı ildən müraciət etməyi daha sərfəli hesab edirəm. Çünki hazırda bazarda çox mənzil təqdim edilmir və rəqabət də azdır. 2026-cı ildə satışa çıxarılacaq mənzillərin sayında artım olması gözlənilir. Rəqabət çox olduqda, endirimlə mənzil sahibi olmaq şansı artır".

### EV TİKMƏK SƏRFƏLİ DEYİL?

Bəziləri torpaq sahəsi alıb fərdi ev tikməyi daha sərfəli hesab edir. Əmlak eksperti vurğulayır ki, hazırda bu üsul o qədər də sərfəli deyil: "Əslində, bu gün torpaq alıb ev tikmək sərfəli deyil. Köhnədən ərsəyə gələn əmlakı almaq və üzərində müəyyən tikinti işləri etmək daha sərfəlidir. Tikinti materialları da bahalaşdığından ev tikmək baha başa gəlir".

## Ev alarkən diqqət edilməli məqamlar...

Mütəxəssis vurğulayır ki, Bakıda mənzil almaq istəyən alıcılar həm yenitikililərdə, həm də köhnə evlərdə bir sıra vacib məqamlara diqqət yetirməlidirlər. Çünki müəyyən risklər mövcuddur və alıcıların hüquqlarını qorumaq üçün əvvəlcədən məlumatlı olmaq önəmlidir: "Köhnə mənzillərdə əsas risk aşınmadır, binanın fiziki olaraq köhnəlməsidir. Aşınmış tikililərdə yaşayış üçün təhlükəsizlik və əlavə təmir xərcləri alıcının üzərinə düşə bilər. Belə mənzillər alınmazdan öncə texniki baxış və ekspertiza tələb olunur. Yeni tikililərdə isə daha fərqli, lakin bir o qədər də vacib problemlər ortaya çıxır. Ən çox rast gəlinən hallardan biri müqavilədə göstərilən ümumi sahə ilə çıxarışda qeyd olunan faktiki sahə arasındakı fərqdir. Tikinti şirkətləri bəzən çöl divarlarını da ümumi sahəyə daxil edərək müqavilə bağlayır. Bu isə qanunvericiliyə ziddir. Məsələn, müqavilədə 100 kvadratmetr olaraq göstərilən mənzil, çıxarışda 82-85 kvadratmetr ola bilər. Bu da 15-17% arası sahə itkisi deməkdir".

TURİZM Kaspi 31 MAY ŞƏNBƏ 2025 9

İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRƏ TURİST KİMİ SƏFƏR ETMƏK ARZUSUNDA OLANLAR ÜÇÜN MARAQLI MƏLUMATLAR

# QARABAĞA NECƏ GEDƏK?




Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

Əgər dünənə qədər vətəndaşlar öncədən portal vasitəsilə yalnız Şuşa, Laçın şəhərləri və Suqovuşan qəsəbəsinə səfər edə bilirdilərsə, artıq bu siyahıya Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Xankəndi, Xocalı və Ağdərə də əlavə olunub.

Ölkə vətəndaşları işğaldan azad olunan ərazilərə turist kimi səfər etmək arzusundadırlar. Əgər dünənə qədər vətəndaşlar öncədən portal vasitəsilə yalnız Şuşa, Laçın şəhərləri və Suqovuşan qəsəbəsinə səfər edə bilirdilərsə, artıq bu siyahıya Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Xankəndi, Xocalı və Ağdərə də əlavə olunub.

Amma səfər etmək istəyənlərin hamısının içində cavab axtardığı "Qarabağa necə gedək?" sualı var.

### MAKSİMUM DOQQUZ NƏFƏR ÜÇÜN İCAZƏ ALINA BİLƏR

Mayın 20-dən etibarən vətəndaşlar "Yolumuz Qarabağa" portalından (www.yolumuzqarabaga.az) əldə olunan icazə əsasında fərdi minik avtomobilləri ilə yuxarıda qeyd edilən yeni istiqamətlərə də səfər edə biləcəklər. Fərdi minik avtomobillərində səfər üçün bir sürücü olmaqla, maksimum doqquz nəfərə icazə alına bilər. Rəsmiləşdirilən icazələr iki gün müddətində etibarlı olacaq. Vətəndaşlar, həmçinin portal üzərindən səfər etdikləri istiqamətlərdə fəaliyyət göstərən hotel və digər yerləşmə məntəqələri barədə məlumat da əldə edə bilərlər. Həmin ərazilərdə iki gündən çox qalmaq istəyən vətəndaşların portal üzərindən yenidən müraciət edib icazələrini daha iki gün uzatmaları mümkündür.

Qeyd edək ki, işğaldan azad edilən istiqamətlərə avtobus marşrutları da var. Vətəndaşlar həmin istiqamətlərə müntəzəm reyslər üzrə biletləri onlayn qaydada "biletim.az" portalı üzərindən əldə edə bilərlər. Məsələn, Bakıdakı Beynəlxalq Avtovağzaldan Bakı -Laçın-Xocalı-Xankəndi-Şuşa istiqaməti üzrə gündəlik reyslər (16.33 AZN) sərnişinləri hər gün qeyd edilən bölgələrə daşıyır.

Füzuli, Zəngilanda və Laçında tikilən beynəlxalq hava limanlarının azad edilən ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin cəlb olunmasında mühüm rol oynayacağı şəksizdir. Hazırda Bakı-Füzuli/Füzuli-Bakı istiqamətində təyyarə biletlərinin qiyməti bir tərəfə 78 manat məbləğində müəyyən edilib (Bu qiymətə 10 kq-a qədər əl yükü və 23 kq-a qədər baqaj daxildir). Bakı-Zəngilan/Zəngilan-Bakı, Bakı-Laçın/Laçın-Bakı istiqamətində uçuşlar isə hələlik həyata keçirilmir.

### TURİSTLƏRİN GƏLMƏSİ ARZUOLUNANDIR

Turizm üzrə ekspertlər bildirirlər ki, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir.

Turizmçi Əziz Şiriyev də işğaldan azad olmuş torpaqlarda sürətli şəkildə yenidənqurma işlərinin aparıldığını qeyd edir: "Bu işlərlə yanaşı, həmin ərazilərə yerli və xarici turistlərin gəlməsi də arzuolunandır. Hazırda xeyli sayda turist işğaldan azad olan əraziləri ziyarət edir, görməli yerlərə baş çəkir. Elə şəhərlər var ki, məsələn, Cəbrayıl şəhəri yenidən qurulur. Köhnə şəhər sol tərəfdə qalıb, sağ tərəfdə yeni Cəbrayıl şəhəri tikilir. Ağdam şəhəri də sıfırdan qurulur. Yeni qurulan ərazilərdə hotellər tikilir". Bu yaxınlarda turizmçilərin bu ərazilərə təşkil edilən infoturunda iştirak edən Ə.Şiriyev hotellərlə bağlı təəssüratlarını bölüşür: "Biz Ağalıda hoteldə olduq. Yaxın gələcəkdə Ağdərədə hotel açılacaq. Şuşada, Xankəndində kifayət qədər hotel və restoranlar fəaliyyət göstərir. Ağdamda da yeni açılan hotel var. Konqres mərkəzləri də fəaliyyətdədir. Digər rayonlarda da iaşə obyektləri və restoranlar açılır, o cümlədən ticarət mərkəzləri fəaliyyətə başlayacaq. Həm yerli vətəndaşlar, həm də xarici turistlər tezliklə fərqli, tarixlə müasirliyin tandemini özündə birləşdirən Qarabağ görə biləcək və çox bəyənəcəklər. Bütün dünya şahid olacaq ki, Qarabağ abadlaşaraq əvvəlki illərinə qayıdıb".

> *"Laçın rayonunu, ətraf ərazilərini, kəndlərini "Şərqi Zəngəzurun incisi" adlandırmaq olar. Ərazinin relyefi, evlərin quruluşu, infrastruktur buna sübutdur. Laçın da artıq səfərlər üçün tam aktivləşib."*

### HOTELLƏR, İAŞƏ OBYEKTLƏRİ, KİRAYƏ EVLƏR

Təbii ki, bölgələrə səfər etmək üçün qeydiyyatdan keçən insanları həmçinin harada qalacaqları, hansı yerləri ziyarət edəcəkləri, necə bir iaşə obyektlərində yemək yeyəcəkləri - ümumən səfər xərcləri maraqlandırır. Nəzərə alsaq ki, səyahətçilərin çoxu səfərlərinin ucuz başa gəlməsi üçün büdcələrinə uyğun sərfəli qiymətlər və rahat infrastruktur axtarırlar, onda bir çox suallara cavab axtarmalı olacağıq.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Afət Telmanqızı sorğumuza cavab olaraq bildirdi ki, Xankəndi şəhərində turizm baxımından bütün infrastruktur var: "Hotellər, restoranlar turistlərin xidmətindədir. Burda şəxsi evlər kirayə verilmir. Xankəndidən fərqli olaraq, Ağdərə və Xocalıda qismən infrastruktur var. Ağdərənin Həsənriz kəndində restoranlar fəaliyyət göstərir. Vəng kəndi və Xocalıda həm hotel, həm də restoran olan ailəvi istirahət mərkəzləri var. Əsgəran qalası yaxınlığında Qarqar çayının sahillərində də gözəl bir istirahət məkanı fəaliyyətdədir. Əsgərana gəlib, Əsgəran qalasını ziyarət etməsən günah olar. Bura turistlərin diqqətini çəkən yerdir". A.Telmanqızı bildirdi ki, ərazidə turistlərin düşərgə (kamp) qurmasına icazə verilmir: "Kampla bağlı hələlik məhdudiyyət var. Səbəb də odur ki, kim harada istəsə kamp qursa, problem ola bilər. Gəzməli, görməli yerlərimiz də çoxdur. Gəzməli yerlər Xankəndiyə girişdən "Mən Xankəndini sevirəm" lövhəsindən başlayır. Gözəl təbiət, mehriban insanlar bu gözəl diyara nəfəs verir".

### "QİYMƏTLƏR VƏ MENYU BAKIDAKI KİMİDİR"

Qarabağ Universitetinin müəllimi, turizm üzrə ekspert Qəhrəman Yusupovun sözlərinə görə, hazırda işğaldan azad olunan ərazilərin hamısında kənd turizmi aktiv olmasa da, Xankəndidə evlərini kirayə verən sakinlər var: "Evlər günlük kirayə verilir. Kənd turizmini inkişaf etdirmək olar. Sadəcə, bunun üçün turistlər gəlməlidir. Hesab edirəm ki, ərazilərə giriş icazəsi verilməsi turist axınına səbəb olacaq. Hazırda Şuşada, Xankəndidə hotellər var və quruculuq işləri görülür, yeni hotellər, iaşə obyektləri tikilir". Qiymətlərə gəlincə, ekspert bildirir ki, Şuşada qiymətlər nisbətən bahadır və turistlər də daha çox Şuşanı görmək istəyirlər: "Turizm şirkətləri turlar təşkil edir və turistlər iki gün müddətində hotellərdə qala bilirlər. Xankəndidə hotellərdə səhər yeməyi daxil olmaqla 60-80 AZN-dən başlayan qiymətlərlə gecələmək mümkündür. Altı yerlik villada isə bir gecəlik qiymət 250-300 manat arası dəyişir.

İaşə obyektlərində qiymətlər və menyu Bakıdakı qiymətlərlə eynidir. Şuşada çay dəsgahı 41 manatdır. Xankəndidə isə 2-3 manata da çay tapmaq olar".

### ŞƏRQİ ZƏNGƏZURUN İNCİSİ

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin rəsmisi Hüseyn Quliyev sorğumuza cavab olaraq bildirdi ki, işğaldan azad olunmuş ərazilərdə, xüsusən Laçın rayonunda turizm infrastrukturu üçün kifayət qədər imkanlar yaradılıb: "Laçın rayonunu, ətraf ərazilərini, kəndlərini "Şərqi Zəngəzurun incisi" adlandırmaq olar. Ərazinin relyefi, evlərin quruluşu, infrastruktur buna sübutdur. Laçın da artıq səfərlər üçün tam aktivləşib. Burada Prezidentin Xüsusi Nümayəndəliyinin Qaynar xətti fəaliyyət göstərir. Bu xidmət vasitəsilə şəhid ailələri, qazilər, müəyyən imtiyazlı şəxslər "whatsapp" vasitəsilə şəxsiyyət vəsiqələrini təqdim etməklə yoxlandıqdan sonra əraziyə səfərlərinin təşkili təmin edilir". H.Quliyevin sözlərinə görə, ərazidə yerləşmək üçün kifayət qədər infrastruktur qurulub: "Evlərdən ibarət olan vaqon tipli yerləşmələr mövcuddur. Bu infrastruktur Həkəri, Abdallar və Laçın adlanan ərazilərdə qurulub. Çox qısa zaman ərzində prezidentin İşlər İdarəsinin sifarişi ilə Zertı kəndində Laçın hotel kompleksinin açılışı planlaşdırılır. Turizm üçün əsas mexanizmlərdən biri də nəqliyyat əlçtanlığıdır. Hazırda Bakı-Laçın-Xankəndi-Şuşa gündəlik reysi fəaliyyət göstərir. Sakinlərin və turistlərin asudə vaxtlarını səmərəli keçirmək üçün restoranlar mövcuddur. Həkəri bulvarı var. Artıq təməli qoyulan kanat layihəsinin xüsusi özəlliyi təkcə turistik deyil, loqistika məqsədinə də xidmət etməsi olacaq. Gələcəkdə müxtəlif investorlar vasitəsilə hotellər şəbəkəsinin genişləndirilməsi planları var. Qiymətlərin əlçatanlığı həm yerli sakinlər, həm də turistlər tərəfindən məmnunluqla qarşılanır. Nəzərə alsaq ki, Bakıdan uzaq məsafədə, yeni qurulan infrastrukturla müəyyən müddətə qiymətlərdə fərq yarana bilər, bununla belə, bu, o qədər də hiss olunmur. Bütün bunlar turistlərin cəlbi üçün atılan addımlardır".



## Hotellərdə qiymətlər dəyişkəndir

İşğaldan azad edilən ərazilərə səfər edənlər Şuşa, Laçın, Ağdam, Xankəndi və Ağdərədə hotel və kotteclərdə qala bilirlər. Qiymətlərə gəlincə, turistlər büdcələrinə uyğun olmayanda bir günlük, büdcələri əl verəndə hotellərdə gecələməklə iki günlük səfərlərə üstünlük verirlər.

**Şuşada** "Xarı bülbül", "Şuşa" və "Qarabağ" hotellərində ikinəfərlik otaqda qiymətlər səhər yeməyi daxil olmaqla, 180 manatdan başlayır.

**Xankəndidə** yerləşən hotellərə daha çox 4-5 ulduzludur. Qiymətlər isə iki nəfər üçün nəzərdə tutulan otaqlarda (səhər yeməyi və fitnes daxil) 180 -550 AZN arası dəyişir.

üç ulduzlu "Xan" və "Qala" hotellərində isə qiymət bir nəfər üçün 100 manatdan başlayır.

**Ağdamda** gecələmək istəyən vətəndaşlar "Agdam City" hoteldə ikinəfərlik otaq üçün səhər yeməyi daxil olmaqla, 180 AZN ödəməlidirlər.

**Laçın** rayonunda isə bir gecəsi 80-100 manat arası dəyişən kotteclər fəaliyyət göstərir.

**Zəngilan** rayonunun mərkəzindən 20 km məsafədə, Ağalı kəndində yerləşən üç mərtəbəli "Ağalı" hoteldə gecələmə bir nəfər üçün 120, iki nəfər üçün 140 AZN-dir (səhər yeməyi + fitnes daxil). Hazırda turistlər burada gecələməklə Zəngilan məscidi, Zəngilan Konqres Mərkəzi Kompleksini ziyarət edə, iaşə obyektlərinin xidmətindən yararlana bilərlər.

İşğaldan azad olunmuş digər ərazilərdə isə hotellərin tikintisi davam edir.

### TARİXİ ABİDƏLƏR, KƏHRİZLƏR, XUDAFƏRİN...

Cəbrayıl sakini, keçmiş məcburi köçkün Əfqan Həziyev bildirir ki, turistlər Cəbrayıla gəlməyə can atsalar da, orada qalmağa o qədər həvəs göstərmirlər: "Bu da ərazidə infrastrukturun hələ yüksək səviyyədə olmaması ilə bağlıdır. Cəbrayılda hazırda Əmirvarlı kənd ərazisində bir hotel fəaliyyət göstərir. Bu hotel də 50-100 qonaq qəbul etmək tutumunda deyil. Amma gecələmə qiymətləri ucuzdur - 15 AZN. Həmçinin iaşə xidmətləri də ucuzdur". Ə.Həziyev məlumat verir ki, hələ Cəbrayılın heç bir kəndinə köç olmadığı üçün oraya gedənlər Laçında, ya da Zəngilanda gecələməyə üstünlük verirlər. Amma Cəbrayıla gedən turistlərin görməsi üçün çoxlu tarixi abidələr, kəhrizlər var: "Rayonda Arazboyu və dağətəyi mənzərəli kəndlər var. Tarixi Xudafərin körpüsünü görmək hər kəsin arzusudur..." Qeyd edək ki, Cəbrayıla getmək istəyənlər hələlik fərdi nəqliyyata üstünlük verirlər.

İşğaldan azad olunan ərazilərə turizm şirkətləri də turlar təşkil edirlər. Şəxsi avtomobili olmayan vətəndaşlar internetdə elanları yerləşdirilən turlara qoşula bilərlər. Məsələn, 1-2 günlük "Xankəndi-Şuşa-Laçın-Ağdam-Əsgəran-Xocalı-Zəngilan-Cəbrayıl", "Şuşa-Xankəndi", "Qarabağ" turlarının qiyməti 65-169 AZN arasında dəyişir. Bələdçilərin də daxil olduğu tur çərçivəsində turistlər gəzdikləri şəhərlərin tarixi, mədəniyyəti, mətbəxi, görməli yerləri və s. ilə tanış olurlar.




Foto: Rüfət Mikayılov/Global Media Group

# “Qlobal informasiya mühiti və media trendləri”



“MEDİAFEST-2025” Muxtar Respublikada Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və “Şərq qapısı” qəzetinin birgə təşkilatçılığı ilə reallaşdırılıb.

Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Prezident İlham Əliyevin müvafiq Sərəncamı çərçivəsində mayın 30-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında “Qlobal informasiya mühiti və media trendləri” konfransı – “MEDİAFEST-2025” keçirilib.

### PEŞƏKAR VƏ İXTİSASLI KADR HAZIRLIĞI

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, son illərdə Naxçıvanda informasiya siyasətinin təkmilləşdirilməsi istiqamətində atılan mühüm addımlardan biri Naxçıvan televiziyasının peyk yayımına qoşulması oldu: “Dövlət başçısının mətbuata verdiyi önəmin bariz nümunəsidir ki, Naxçıvan Dövlət Universitetində müasir tələblərə cavab verən tədris proqramları əsasında peşəkar və ixtisaslı jurnalist kadr hazırlığı həyata keçirilir”.

### KONFRANS MEDİAMIZ ÜÇÜN MÜHÜM PRAKTİK ƏHƏMİYYƏT DAŞIYACAQ

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, qlobal informasiya mühitinin media trendlərinin formalaşmasına təsirindən danışarkən artıq ənənə halını almış Şuşa Qlobal Media forumları barədə bəhs etməmək mümkün deyil. O qeyd edib ki, Qlobal Media forumlarında Prezident İlham Əliyevin şəxsən iştirak etməsi, media nümayəndələrinin çoxsaylı suallarını cavablandırması dövlətimizin haqq səsinin dünyaya çatdırılması baxımından əlamətdar hadisə olmaqla yanaşı, eyni zamanda, başlıca vəzifəsi cəmiyyəti obyektiv və qərəzsiz informasiya ilə təmin etmək olan mediaya diqqət və qayğının müstəsna təzahürüdür.

“Düşünürük ki, bu gün Naxçıvan şəhərində işinə başlayan konfrans Azərbaycan mediası üçün mühüm praktik əhəmiyyət daşıyacaq”, - deyə Əhməd İsmayılov əlavə edib.

### İNNOVATİV TEXNOLOGİYALARIN MƏTBUATDA TƏTBİQİ

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin media ilə iş sektorunun müdiri Kamran Həsənov isə bildirib ki, Naxçıvan Azərbaycanın ümumi informasiya məkanının formalaşmasında mühüm yer tutur. Onun sözlərinə görə, rəqəmsal dövrün tələbləri, süni intellektin media sahəsinə təsiri, dezinformasiya ilə mübarizə və sosial medianın artan rolu jurnalistlərdən daha yüksək peşəkarlıq və çeviklik tələb edir: “Bu gün Azərbaycan mediası yalnız daxili auditoriyaya deyil, həm də beynəlxalq informasiya məkanında ölkəmizin maraqlarını müdafiə etmək vəzifəsi ilə üz-üzədir. Bu, yeni nəsil jurnalistlərin hazırlanmasını, media savadlılığının artırılmasını və innovativ texnologiyaların mətbuatda tətbiqini zəruri edir”.




# İKİ SİFARİŞ EDİN, BİR ÇATDIRILMA HAQQI ÖDƏYİN!

“Wolt”-un İkili Sifariş yeniliyini sizə təqdim edirik! Artıq sifariş etmək daha asan və daha sərfəlidir. İkili Sifariş ilə iki fərqli məkandan lazım olan hər şeyi bir saat və ya daha az müddətdə qapınıza çatdırırıq. Axşam yeməyi və şirniyyat, ərzaq və gül dəstələri, hədiyyələr və qəlyanaltılar və daha çoxunu yerli restoranlardan və mağazalardan bir çatdırılma haqqı ilə sifariş edə bilərsiniz.

### BU NECƏ İŞLƏYİR?

• “Wolt” tətbiqini açın, səbətinizə məhsul əlavə edin və sifarişinizi yerləşdirin.

• Biz sizə daha çox məhsul əldə etməyiniz üçün yaxınlığınızda olan restoranları və mağazaları təklif edəcəyik.

• İkili Sifarişi başlatmaq üçün ekranın aşağısında əks olunan “Daha az ödəyib, daha çox əldə edin” bölməsinə toxunun.

• Birinci sifarişi etdikdən sonra yeni məhsul əlavə etmək üçün 15 dəqiqəniz olacaq.

• İkinci sifarişi yerləşdirin, ödənişi tamamlayın və ikinci sifarişinizi yekunlaşdırın. Minimal sifariş məbləği və ikinci sifariş üçün çatdırılma haqqı yoxdur.

• Öz sifarişinizi izləyin

İkili Sifariş ilə bağlı tez-tez verilən suallar:

**• İkili Sifariş nədir?**

İkili Sifariş, sizə iki fərqli restoran və ya mağazadan, ikinci sifariş üçün əlavə çatdırılma haqqı ödəmədən bir anda sifariş etmək imkanı yaradır.

**• “Wolt” tətbiqində İkili Sifarişi necə etmək olar?**

“Wolt” tətbiqini açın və həmişəki qaydada sifarişinizi yerləşdirin. Biz, sifarişinizə əlavələr edə biləcəyiniz, sizə yaxın olan restoranları və mağazaları təklif edəcəyik. “Daha az ödəyib, daha çox əldə edin” bölməsinə toxunun və səbətinizə yeni məhsullar əlavə edin. Əsas sifarişi verdikdən sonra, sifarişə əlavələr etmək üçün 15 dəqiqəniz var. İkinci sifarişin ödənişini edin və çatdırılmasını gözləyin. Sifarişinizin çatdırılmasını tətbiqdən hər addımda izləyə bilərsiniz.

**• Neçə məkandan sifariş edə bilərəm?**

İkili Sifariş, sizə iki fərqli restoran və ya mağazadan bir anda sifariş etmək imkanı yaradır.

**• İkili Sifariş üçün hansı məkanlar uyğundur?**

“Wolt” tətbiqində sifariş etdikdən sonra, səbətə əlavələr edə biləcəyiniz yerli məkanları görə biləcəksiniz. İkili Sifariş yeniliyini istifadə edərək restoran yeməkləri, ərzaq, əczə məhsulları, güllər, ev heyvanları üçün lazım olan hər şey, elektronika, hədiyyələr və “Wolt”-da mövcud olan digər məhsulları sifariş edə bilərsiniz. İkili Sifariş yeniliyini bir çox restoran və mağazalarda istifadə etmək mümkündür, lakin seçimlər məsafə məhdudiyyətləri və məkanınıza görə fərqli ola bilər.

**• Əlavə ödənişlər mövcuddur?**

Siz İkili Sifariş etdikdə, sadəcə bir sifariş üçün çatdırılma haqqı ödəyirsiniz. İkinci sifariş üçün əlavə çatdırılma haqqı yoxdur. Hər iki məkan üçün kiçik bir xidmət haqqı tətbiq edilir. Xidmət haqqını, sifarişi tamamladıqdan sonra ödəniş zamanı görə biləcəksiniz.

**• Hər hansı məhdudiyyətlər mövcuddur?**

İkili Sifariş yeniliyi hal-hazırda yalnız “Wolt” tətbiqində mövcuddur. Bu yeniliyi tezliklə veb-səhifəmizə də gətirmək üzərində çalışırıq. İki məkanı, yalnız bir çatdırılma haqqı ödəyərək, bir sifarişdə birləşdirin. Ərzaqlar, dadlı yeməklər və gül dəstələri daha sərfəli qiymətə qapınıza çatdırılsın!

# SOCAR-IN QEYRİ-NEFT İXRACINDAN GƏLİRİ ARTIB



Bu ilin yanvar-aprel aylarında Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi 140,8 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsul ixrac edib. “Report”un məlumatına görə, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”nın may sayında bildirilir.

Bildirilir ki, bu, 2024-cü ilin ilk dörd ayı ilə müqayisədə 19 milyon ABŞ dolları və ya 15,6% çoxdur.

Hesabat dövründə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 18 % artaraq 1,1 milyard ABŞ dolları təşkil edib.

Kaspi
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev
Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 1123
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

LOMBARDLAR QIZILIN QRAMINI BAZAR DƏYƏRİNDƏN AŞAĞI QİYMƏTLƏ DƏYƏRLƏNDİRİRLƏR

# QIZIL GİROV QOYARKƏN NƏLƏRƏ DİQQƏT ETMƏLİ?

Qızıl girov qoyularkən zinət əşyası kimi yox, saf qızıl kimi qiymətləndirilir. Girov saxlayan qurumlar üçün qızılın əl işi və ya zinət əşyası olub-olmaması vacib deyil, əsas olan onun tərkibindəki saf qızılın miqdarıdır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son vaxtlar bazarda qızılın sürətlə bahalaşdığını müşahidə edirik. Bu bahalaşma fonunda qızıl girovları ilə bağlı vəziyyət ürəkaçan deyil. İnsanlar qızılın girov kimi bazar qiymətindən çox az qiymətləndirildiyini iddia edirlər. Məlumat üçün bildirək ki, hazırda bazarda qızılın bir qramının qiyməti əyarına uyğun olaraq, 107-128 manat arasında dəyişir.

**LOMBARDLAR QIZILIN QRAMINI NEÇƏYƏ DƏYƏRLƏNDİRİR?**

Maraqlıdır, lombardlar qızılı hazırda girov kimi neçəyə dəyərləndirir? Əgər sizin lombarda girov qoymaq istədiyiniz qızıl 583 əyardırsa, qramı 85 manata, 750 əyardırsa, 95 manata götürülür. Yəni, siz lombarda 583 əyarlı 30 qram qızıl girov göstərirsinizsə, sizin qızılınız 2850 manat dəyərləndirilir, o qızılı bazarda satmaq istəsəniz, 3210 manata sata bilirsiniz. Daha önəmli məqam isə odur ki, girov qoyulduqdan sonra qızılın qiyməti nə qədər artsa da, bu, sizin girov kimi təqdim etdiyinizə təsir etmir, qiymət dəyişmir. Bank olmayan kredit təşkilatları da hazırda bazarda qızılı eyni məbləğlə qiymətləndirirlər. Üstəlik, onlar minimum 17 qram qızıl götürür, 1500 manat pul ayırır. Siz bu borcu illik 17 faizlə qaytarırsınız.

Banklar da vətəndaşlara girov qarşılığında kredit təklif edirlər. Maksimum 50 min manata qədər 36 aylıq kredit verirlər. Bankaların illik faiz dərəcəsi 21 faizdən başlayır.

**“LİKVİD QİYMƏTƏ” REALİZƏ OLUNUR**

Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc deyir ki, lombardlar qızılın qramını bazar dəyərindən təxminən 10-15% aşağı qiymətlə dəyərləndirirlər: “Lombardların tətbiq etdiyi qiymətləndirmə metodu fərqlidir. Bu fərqin səbəbi riskin idarə olunmasıdır. Belə ki, əgər vətəndaş ödənişlərini vaxtında etməzsə, xüsusilə iki ay ərzində borc bağlanmazsa, həmin qızıl lombard tərəfindən satışa çıxarılır və “likvid qiymətə” realizə olunur. Yəni, qızılın sürətlə satıla biləcəyi qiymət əsas götürülür”.

**3500 DOLLARA QƏDƏR YÜKSƏLƏ BİLƏR**

Mütəxəssis bildirir ki, buna qarşılıq olaraq, banklar qızılı bazar dəyərinə yaxın qiymətlə qiymətləndirirlər və daha şəffaf sistem tətbiq edirlər: “Hazırda bazarda 999 əyarlı saf qızılın bir qramının qiyməti təxminən 177 manat, yəni təqribən 104 ABŞ dollarıdır. Bu göstərici beynəlxalq qızıl bazarlarında formalaşan qiymətə əsaslanır və gündəlik dəyişə bilər. Müxtəlif əyarlı qızılların qiymətləri isə həm yerli, həm də xarici bazarlarda fərqlənir. Məsələn: 583 əyarlı qızıl yerli bazarda bir qram üçün təxminən 100 manat, xarici bazarda isə 107 manat, yəni təxminən 63 ABŞ dolları dəyərindədir. 750 əyarlı qızıl isə yerli bazarda 125-128 manat, xarici bazarda 82-83 dollar səviyyəsində qiymətləndirilir. Qızılın qiyməti son aylarda kəskin şəkildə artmaqda davam edir. Ötən ilin mart ayında bir qram qızılın qiyməti 68-72 manat civarında idisə, altı ay sonra bu rəqəm 80-85 manata qədər yüksəlib. Hazırda bir unsiya (təxminən 31,1 qram) qızılın dünya bazar qiyməti 3250 ABŞ dollarına çatıb. Bu rəqəm yaxın aylarda 3500 dollara qədər yüksələ bilər”.



Vüqar Oruc

Anar Abdullayev

Real dəyərindən **10-15%** aşağı qiymətləndirmə



## ZİNƏT ƏŞYALARI LOMBARDA GİROV QOYULDUQDA...

V.Orucun sözlərinə görə, qızıl girov kimi qoyularkən zinət əşyası kimi yox, saf qızıl kimi qiymətləndirilir: “Çünki likvidlik - yəni, tez bir zamanda satıla bilmə qabiliyyəti - əsas faktorlardan biridir. Girov saxlayan qurumlar üçün qızılın əl işi və ya zinət əşyası olub-olmaması vacib deyil, əsas olan onun tərkibindəki saf qızılın miqdarıdır. Bu səbəbdən də, zinət əşyaları girov qoyulduqda onların estetik və sənətkarlıq dəyəri nəzərə alınmır, yalnız tərkibindəki qızılın çəkisinə və əyarına əsasən qiymət verilir. Bu da vətəndaşların gözlədiklərindən daha aşağı məbləğdə girov dəyəri ilə qarşılaşmalarına səbəb olur”.

**HÜQUQ NƏ DEYİR?**

Lombardlarla bağlı problemlər yaşayan, kifayət qədər borcları yaranan insanlar var. Kimisi iki min manat kredit götürüb, 45 min manat ödədiyini deyir, kimisi girov kimi qoyduğu qızılların ona qaytarılmadığını, kimisi oğurlandığını bildirir. Bəs hüquqi baxımdan vətəndaş qızılı girov qoyarkən nələrə diqqət etməlidir?

Hüquqşünas Anar Abdullayev deyir ki, qızılı yalnız Mərkəzi Bank və ya Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən rəsmi lisenziya verilmiş bank, bank olmayan kredit təşkilatına və ya lombardlara girov qoymaq tövsiyə olunur: “Əsas məqamlardan biri odur ki, həmin qızılın çəkisi və keyfiyyəti (karatı) düzgün qiymətləndirilməlidir. Bunun üçün müstəqil qiymətləndiricinin iştirakı və müvafiq cihazların istifadə olunması zəruridir. Girov qoyulan zaman tərəflər arasında mütləq yazılı müqavilə imzalanmalı və həmin müqavilə detallı olmalıdır. Müqavilədə girovun dəyəri, müddəti, faiz dərəcəsi, gecikmə halları və geri qaytarma şərtləri dəqiq yazılmalıdır. Girov qoyulan əşyaya dair sənəd vətəndaşda saxlanmalıdır”.

Girov qoyulması zamanı vətəndaşların hüquqlarının qorunması məsələsinə gəldikdə, həmsöhbətimiz bildirir ki, Mülki Məcəlləyə əsasən, girov müqaviləsi tərəflər arasında hüquq və öhdəlikləri müəyyən edir: “Əgər girov bank və ya maliyyə qurumuna qoyulursa, istehlakçı hüquqlarını qoruyan qanunlar tətbiq olunur (məsələn, devalvasiya riski, faizin yuxarı həddini keçməmək və s.). Qeyd edilən prosedurlar üzrə tərəflərin hər hansı bir hüquqları pozulursa, onlar aidiyyəti məhkəməyə müraciət edə bilər. Eyni zamanda girov müqaviləsində üçüncü tərəf zamin qismində çıxış edirsə, onun da məlumatlandırılması zəruridir. Ölkədə fəaliyyət göstərən lisenziyalı qurumlarda bu proses daha şəffafdır. Lombardlarda isə şəffaflıq səviyyəsi fərqli ola bilər. Bəzi lombardlar qeyri-rəsmi fəaliyyət göstərə və ya müştəriləri aldatmaq riskləri daşıya bilirlər”.

# ŞƏKƏR SEVGİMİZ ARTMAQDADIR

Şəkər və un məmulatlarının ziyanlarından tez-tez danışılsa da, bu məhsulların istehsalı hər il artmaqdadır. Ekspertlərin fikrincə, tələbatın artmasının başlıca səbəbi müasir həyat tərzimizdir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin yanvar-aprel aylarında Azərbaycanda 85,1 min ton şəkər və qənd istehsal edilib. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 59,7 faiz çoxdur. Son bir ildə ölkədə şəkərli qənnadı məmulatların istehsalı yeddi faiz artaraq 2 973,4 tona çatıb. Mayın 1-nə Azərbaycanda 5,7 min ton şəkər və qənd, 61,1 ton isə şəkərli qənnadı məmulatları üzrə hazır məhsul ehtiyatı olub ki, bu da bir il əvvələ nisbətən müvafiq olaraq 72,7 faiz çoxdur. Bu ilin yanvar-aprel aylarında Azərbaycanda 23 734,3 ton unlu qənnadı məmulatları istehsal edilib. Bu, 2024-cü ilin eyni dövrünə nisbətən 1,1 faiz çoxdur. Mayın 1-nə ölkədə 648,4 ton hazır məhsul ehtiyatı yaranıb ki, bu da illik müqayisədə 3,3 dəfə çoxdur.

Rəqəmlərdən də göründüyü kimi, şəkər və qənd, həmçinin onlardan hazırlanan unlu qənnadı məhsullarının istehsalında nəzərəçarpacaq dərəcədə artım mövcuddur. İstər mütəxəssislər, istərsə də həkimlər tərəfindən şəkərin insan orqanizmi üçün zərərli olduğu bildirilsə də, istehsal artmaqdadır. Bəs bu artımın səbəbi nədir?

### "ƏVVƏL EVDƏ HAZIRLANIRDI, İNDİ HAZIR ALINIR"

İqtisadçı Günay Hüseynovanın sözlərinə görə, istehsal həcminin artmasının səbəbləri var: "Ölkəmizdə qeyd olunan məhsulların istehsal həcminin artmasına ilkin səbəb daxili tələbatla əlaqədardır. Tələbata təsir edən amillər arasında istehlakçıların hazır məhsulu almaq istəyi də var. Orta statistik Azərbaycan ailəsində əvvəlki illərdə qənnadı məhsulları evdə hazırlanırdısa, hazırda satın alınır. Sosial şəbəkələrdə saysız-hesabsız qənnadı məhsulları satış səhifələri olması buna bariz nümunədir".

G.Hüseynovanın fikrincə, istehsal gücünün artmasının digər səbəblərindən biri bu sahədə innovativ texnologiyaların tətbiqidir. Belə ki, dünya standartlarına cavab verən yeni avadanlıqların istehsala cəlb olunması, kənd təsərrüfatında məhsul bolluğu da bu məsələdə önəmli rol oynayır.



Günay Hüseynova




## Vaxt azlığı, tələsik həyat tərzi

Tələbatın artmasının səbəbi ilə bağlı diyetoloq Şəhriyyə Əhmədovanın da cavabı maraqlıdır: "Şəkərə və un məhsullarına tələbatın artmasının səbəbi qida mədəniyyəti və vərdişlər, marketinq və reklam təsiri, stres və gündəlik həyatın gərginliyi, sağlamlıq maarifləndirməsinin zəif olması, sağlam alternativlərin çatışmazlığıdır. İnsanlar un və şəkərdən uzaq durmaqda çətinlik çəkirlər. Bu, təkcə iradə gücü ilə bağlı deyil. Burada bioloji, psixoloji, sosial və iqtisadi səbəblər bir-birinə qarışır. Asılılıq yaradan təsir, emosional yemək vərdişi, bu qidaların asanlıqla əldə olunması, vaxt azlığı, tələsik həyat tərzi, sosial vərdişlər, yanlış məlumat və qida savadsızlığı da burada önəmli rol oynayır".

### "UN VƏ ŞƏKƏRDƏN UZAQ DURUN"

Diyetoloq un və şəkərdən uzaq durmağı məsləhət görür. Çünki bu qida vasitələri orqanizmdə bir çox xroniki xəstəliklərin təməlini qoyur: "Ürək, qan-damar sisteminin fəaliyyətini pozur, beyin və əhval-ruhiyyəyə pis təsir edir. Məsələn, təmizlənmiş un istehsalı zamanı tərkibindəki vitamin və minerallarin çoxu yox olur. Belə un boş kalori mənbəyi sayılır. Lifsiz un məhsulları bağırsaq bakteriyalarının balansını pozur və həzm sisteminin zəifləməsinə gətirib çıxarır. Süni, işlənmiş (rafinə edilmiş) şəkər qan şəkərini sürətlə qaldırır, bu da insulin səviyyəsinin artmasına və zamanla insulin müqavimətinə rəvac verir. Şəkərin yüksək istifadəsi xroniki iltihabı artırır, bu da bir çox xəstəliyin (ürək-damar, xərçəng, autoimmun) inkişafına təkan verə bilər".

## "Şəkərli məhsulların qiyməti aşağıdır"

Qida mütəxəssisi Fərid Səfərov da bildirdi ki, şəkər istifadəsinin artması müasir həyat tərzi, marketinq və psixoloji faktorlarla sıx bağlıdır: "Hazır qidalar (fast food) artır, desertlər, qazlı içkilər və konservləşdirilmiş məhsullar gündəlik qidalanmanın bir parçasına çevrilir. Qida sənayesinin marketinqi, reklamlar şəkəri cazibədar və "zövqverici" kimi təqdim edir. Asan əlçatanlıq və ucuz olması da rol oynayır. Şəkərli məhsulların qiyməti aşağıdır, onları hər yerdə tapmaq olur. Qidalanma savadsızlığı da şərtdir. Bir çox insan istehlak etdiyi məhsulun içində nə qədər şəkər olduğundan xəbərsizdir. İnsanlar bu qidalardan imtina edə bilmir. Çünki şəkər tərkibli qidalar beyində xoşbəxtlik hissi yaradır, bu da davamlı istək formalaşdırır. Şəkər beyində dopamin ifrazını artırır, onu asılılıq yaradan hala gətirir. İnsanlar narahatlıq və stres anlarında şəkərə üz tuturlar".



Şəhriyyə Əhmədova

### "YAŞLANMAQ PROSESİNİ LƏNGİTMƏK ÜÇÜN..."

F.Səfərovun fikrincə, bu məhsullar təkcə sağlamlığımıza deyil, gündəlik həyatımıza da zərbə vurur: "Şəkərli qidaların insulin müqaviməti və ikinci tip şəkərli diabet riski, artıq çəki və piylənmə, diş çürümələri, dəri problemləri, iltihabi proseslərin artması kimi orqanizmimizə təsirləri mövcuddur. Uzunmüddətli sağlamlıq problemlərinin qarşısını almaq, həqiqi enerji və diqqəti saxta, qısamüddətli stimullardan ayırmaq üçün şəkərli qidalardan uzaq durmalıyıq. Metabolik sağlamlığı qorumaq, yaşlanma prosesini ləngitmək üçün daha təbii, doyurucu alternativlərə - meyvələr, tünd şokolad, quru meyvəyə üstünlük verməliyik".

# UŞAQLARI DİLƏNÇİLİKDƏN NECƏ XİLAS EDƏK?

1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ərəfəsində küçələrdə dilənçiliyə cəlb edilən uşaqlarla bağlı problem yenidən gündəmə gəlib. Problem kifayət qədər ciddidir, həlli isə asan görünmür.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Dünyanın müxtəlif ölkələrində dilənçilik edən uşaqları tez-tez görmək olar. Təəssüf ki, Bakı küçələrində də bu mənzərənin şahidi oluruq. Uşaqlar metroda, yeraltı keçidlərdə və ya küçələrdə dilənirlər. Bəziləri bu uşaqların qazancının onları uşaqlıqdan məhrum edənlərin cibinə girəcəyini düşünmədən keçir.

İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun illik məlumatı isə uşaqların istismarına göz yummamağa çağırır: "Reydlər zamanı küçə həyatına məruz qalan, dilənçilik edən 616 azyaşlı müəyyən edilib. Onları hüquqazidd əməllərə təhrik edən 354 valideyn barədə tədbir görülüb".

Milli Koordinatorun 2024-cü ildə ölkəmizdə insan alverinə qarşı mübarizəyə dair məlumatının müzakirəsi zamanı millət vəkili Fazil Mustafanın səsləndirdiyi fikirlər də problemin dərinliyinə diqqət yönəldir: "O uşaqlara dövlət sahib çıxmalı, yenidən küçəyə qayıtmasına imkan tanımamalıdır. Dövlət xüsusi mexanizmi tətbiq etməlidir. O cür uşaqlar üçün internat məktəbi yaratmaq olar. Küçədə dilənçilik edən uşaq tutuldusa, dərhal ora göndərilməlidir və valideynin əlindən alınmalıdır. Çünki valideynə qaytarılsa, yenidən o yola təhrik olunacaq".

Uşaqları dilənçiliyə sövq edən səbəblər dövləti və cəmiyyəti həmişə narahat etsə də, problem tamamilə çözülmür, həll yolu tapılmır. Bəs o uşaqları küçədən yığmaq üçün daha hansı addımlar atmaq olar?



Fazil Mustafa

### CİNAYƏT MƏSULİYYƏTİNƏ SƏBƏB OLAN HAL

Azərbaycan Vəkillər Kollegiyasının üzvü, vəkil Ruslan Vəliyev qeyd edir ki, yetkinlik yaşına çatmayan - 15 yaşınadək uşaqların işlədilməsi qanuna ziddir: "Bu, həm Konstitusiya, həm də Əmək Məcəlləsi ilə qadağan olunub. Bütün bu məsələlər qanunvericilikdə öz əksini tapıb, sadəcə olaraq onun tətbiqində boşluqlar ola bilər". R.Vəliyevin fikrincə, problemin parlamentdə gündəmə gətirilməsi müsbət haldır: "Belə hüquq pozuntuları barədə məlumatlar vətəndaşlar tərəfindən də dövlət orqanlarına daxil olsa, yaxşı olar. O cümlədən, KİV-in üzərinə böyük məsuliyyət düşür ki, belə hallar aşkarlanarkən dövlət orqanlarına məlumat verilsin". Hüquqşünas bildirir ki, uşaqlarını dilənçiliyə təhrik edən valideynləri də cəza gözləyir: "Əgər məcburi əmək varsa, qanun cəlb edənin valideyn və ya digər şəxs olduğuna baxmır".

### "UŞAQLARIN AİLƏLƏRDƏN ALINMASI ÇIXIŞ YOLU DEYİL"

"Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin sədri, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Kəmalə Aşumova hesab edir ki, bu problemin həllində uşaqların ailələrdən alınması çıxış yolu deyil: "Uşaq ailə mühitində böyüsə yaxşı olar. Baş verən hər hadisə individual yanaşma və araşdırma tələb edir. Hər bir uşağın yaxınının, doğmasının onu küçə həyatına sövq etməsinin arxasında nə durur, ilk növbədə onu araşdırmalıyıq". İB sədri küçədə bu cür uşaqlarla görüşdüyünü, valideynləri ilə iş apardığını bildirir: "Bizim məqsədimiz odur ki, onlar internatlara, sığınacaqlara deyil, ailələrinə inteqrasiya etsinlər".





## "AİLƏ İLƏ İŞLƏMƏK LAZIMDIR"

K.Aşumova hesab edir ki, problemin həlli üçün valideynlərlə işləmək lazımdır: "Biz valideynlərlə işləyəndə onların maddi rifahlarının aşağı olmasını, xəstəliyini, çətinlik ucbatından övladını təhsilə yönəldə bilməməsini, uşağı ilə birgə küçədə dilənd iyini müşahidə etmişik. Çalışmalıyıq ki, sosial-maddi rifahın yaxşılaşdırılması, məşğulluğun təmini ilə uşaqların ailələrdə böyüməsinə nail olaq. Ailə ilə işləmək lazımdır. Bu, dövlət qurumları ilə əməkdaşlıq, psixoloji terapiyalar, valideyn bacarıqlarının öyrədilməsini və s. tələb edir. Elə uşaq var ki, o valideyni ilə küçədə durursa, biz onu valideynindən ayıranda uşaq evinə getmək istəmir. Bəs o uşaqlarla nə edək? Mən o halda uşağın valideyndən alınmasının tərəfdarıyam ki, valideyn tüfeyli həyat sürür, zərərli vərdişləri var və bundan əl çəkmək istəmir. Onda uşaq ya alternativ himayədar bir ailəyə verilə və ya müəssisəyə yerləşdirilə bilər. Yaxın qohumların qəyyumluğunu da nəzərdən keçirmək lazımdır". Bu tip uşaqların təhsildən yayınmasına gəlincə, K.Aşumovanın fikrincə, təhsil sistemi elektronlaşdırılandan sonra həssas və sosial təhlükəli vəziyyətdə yaşayan və ya kirayədə qalan, doğum haqda şəhadətnaməsi və ya şəxsiyyət vəsiqəsi olmayan ailələrdə problem yaşanıb. Belə ki, elektronlaşdırma sisteme düşmək üçün sənəd tələb edir: "Vaxt keçdikcə də uşaq təhsildən kənar qalır, onu məktəbə götürmürlər. Valideyn kirayədə yaşayıb qeydiyyatı olmadığı üçün nə özünə şəxsiyyət vəsiqəsi ala bilir, nə də uşağının sənədi olur. Uşaq məktəbə getmirsə, yerli icra və polis orqanlarına, sosial xidmət mərkəzlərinə məlumat verilməlidir. Yerli İH və polis şöbəsi bu cür ailələri müəyyənləşdirməlidir. İstisna halda bu təbəqə üçün qeydiyyat məsələsini bir az asanlaşdırmaq lazımdır".



Kəmalə Aşumova

## PSİXOLOJİ MAARİFLƏNDİRMƏ LAZIMDIR

Psixologiya üzrə fəlsəfə doktoru Fatimə Bayramova da hesab edir ki, küçələrdə, körpü altında, təhlükəli şəraitdə azyaşlı uşaqları dilə ndirmək ağlasığmazdır: "Konkret yerlər var ki, orada uşaqların dilənməsinə göz yumulur". Psixoloq hesab edir ki, övladını dilənməyə sövq edən valideynlər uşaqları əllərindən alınmazdan öncə psixoloji müayinədən keçirilməlidirlər: "Çünki bəzilərinin həqiqətən, psixoloji problemi olur, şiddətə meyilli olurlar. Bəzi uşaqlar isə kiminsə təsiri altında dilənməyə başlayırlar. O cür aldanmış uşaqları psixoloji maarifləndirməyə cəlb etmək mümkündür".



Fatimə Bayramova

# YERLİ QOYUNLARA RƏQİB GƏLİR

Rusiya və Gürcüstandan qoyun əti idxalı artıb. Ekspertlər bildirirlər ki, idxalın artması yerli ət istehsalında olan problemlərlə əlaqədardır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan Rusiyadan diri qoyun idxalını artırıb. Belə ki, bu ilin birinci rübündə Azərbaycan 1,1 milyon ABŞ dolları dəyərində 10 115 baş diri qoyun idxal edib. Bu, ötən ilin eyni dövrünün göstəricisindən dəyər ifadəsində 19 dəfə, kəmiyyət olaraq - 16 dəfə çoxdur. Hesabat dövründə Azərbaycana Rusiyadan 927,8 min ABŞ dolları dəyərində (bir il əvvəlki göstəricidən 58 dəfə çox) 7 945 baş (47 dəfə çox) və Gürcüstandan 209,4 min ABŞ dolları dəyərində (5 dəfə çox) 2 170 baş (4,5 dəfə çox) qoyun gətirilib. 2024-cü ildə Azərbaycana idxal edilmiş 182 min baş qoyunun 88 faizi Gürcüstanın payına düşüb.




### "ƏT İSTEHSALIMIZDA GERİLƏMƏ MÖVCUD DEYİL"

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynovun sözlərinə görə, yerli qoyun istehsalımızda heç bir problem mövcud deyil: "Qeyd olunan dövrdə - yanvar-mart aylarında 141,6 min ton diri çəkidə ət istehsal olunub. Bu, ötən illə müqayisədə 1,7 faiz çoxdur. Yəni, ət istehsalımızda geriləmə mövcud deyil. Ölkəmizdə altı milyona yaxın qoyun var. 10 115 ədəd qoyun cəmi bir təsərrüfatlıq saydır. Elə də böyük rəqəm deyil".

V.Hüseynov bildirir ki, sahibkarlar heyvanları quzu ikən alır, böyütdükdən sonra qoyun əti olaraq satışa çıxarırlar: "Daxili bazarda da tələbat olduğundan ixrac edilir. Yeni təsərrüfatlar da formalaşa bilər. Aqroparklarda təsərrüfatlar yaradırlar. Ola bilər ki, ucuz olub və o səbəbdən gətirirlər. Qoyunun birini 109 dollara alıblar. Bu, sahibkarlara sərf edir. Kiçik heyvanları gətirib üç ay bəsləyib satırlar. Diri satış etmirlər. Əsasən ətlik kimi satılır. Azərbaycanda 60 min qoyunluq təsərrüfatlar var. Dövlət xətti ilə ölkəmizə heyvan gətirilmir".



Vüqar Hüseynov

### "QURBAN BAYRAMINDA İDXAL ARTACAQ"

Nazirlik rəsmisinin sözlərinə görə, Qurban bayramının yaxınlaşması xaricdən diri qoyun gətirilməsinə səbəb ola bilər: "Əvvəlki bayramlarda 40 minə yaxın heyvan satılıb. Hansı ki, yerli təsərrüfatlardan əlavə, xarici qoyunlar da satılır. Qurban bayramı ərəfəsində qoyuna tələbat artdığından idxal daha da genişlənəcək".

### "KƏNDLƏRDƏ QOYUN SAXLAMAQ İSTƏMİRLƏR"

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü Azər Badamovun sözlərinə görə, istehsal azaldıqca idxalın artması normaldır: "Bazar qanunları rəqabətlə işləməlidir. Daxili bazarın təminatı üçün qoyun idxalı normal haldır. Bu, ölkə daxilində heyvandarlığın inkişafı üçün təhlükə yaratmır. İdxalın artması istehsalın azalması ilə bağlıdır. Ölkədə qoyun təsərrüfatlarının sayı azalır. Biznes adamları daxili bazarda nəyə ehtiyac varsa, onu idxal edir".

A.Badamov daxili istehsalı azaldan səbəblərə də toxundu: "Kəndlərdə qoyun saxlamaq istəmirlər. Bu, bazarda ətin qiymətinin aşağı olması ilə əlaqəli deyil. Çünki daxili bazarımızda qoyun əti kifayət qədər baha satılır. Fermerlərimiz, kəndlilərimiz qoyun saxlayıb satmaqla heç vaxt ziyana düşmürlər. Əksinə, qoyunçuluq rentabelli sahədir. Amma həm də əziyyətli sahədir. İnsanlar son vaxtlar daha az zəhmətlə daha çox qazanmaq istəyirlər. Fermerlər, kəndlilər qoyun saxlamaq əvəzinə, iribuynuzlu heyvanların saxlanılmasına üstünlük verirlər".



Azər Badamov

## "Bazar özü-özünü tənzimləməlidir"

Deputatın fikrincə, ölkədə qoyun əti kəskin ucuzlaşarsa və ya idxal olunan qoyun əti yerli istehsaldan aşağı qiymətə satılarsa, bu, qoyunçuluq təsərrüfatlarının gəlirlərinə mənfi təsir göstərə bilər: "Amma bizdə əksinədir. Qiymət artır. Bu da qoyunçuluq təsərrüfatlarının rentabelliyini artırır. Kəndlərdə, fermer təsərrüfatlarında qoyunçuluğun inkişafına üstünlük verilməlidir. Əgər idxalın yerli təsərrüfatların inkişafına mənfi təsiri baş verərsə, bu məsələni hökumət tənzimlənmə alətlərindən istifadə etməklə həll edəcək. Amma indidən qoyun ətinin idxalına məhdudiyyət tətbiq olunarsa, daxili bazarda qiymət kəskin arta bilər. Bu baxımdan bazar özü-özünü tənzimləməlidir".

### "XARİCİ ƏTLƏR UCUZ QİYMƏTƏ SATILIR"

Kənd təsərrüfatı eksperti Şahin Nəcəfovun sözlərinə görə, fermerlər kənddə heyvan saxlamaq üçün otlaq tapa bilmirlər. Kiçikbuynuzlu heyvanlarda bir milyon 200 minə yaxın azalma var: "Xarici məhsullar ucuz qiymətə gətirilib satılır. Bu halda yerli qoyun alınmır. Məhsulu alınmırsa, kəndli artıq qoyun saxlamayacaq. İdxal ildən-ilə genişlənir. Bunun qarşısının alınması üçün orta-kiçik ailə təsərrüfatları dəstəklənməlidir".

### NECƏ FƏRQLƏNDİRƏK?

Qəssab Müslüm Rzayev hazırda rayon bazarlarında quzu ətinin bir kiloqramının qiymətinin 14-16 manat arasında dəyişdiyini, mağazada isə 20 manata satıldığını bildirdi: "Ümumi çəkisi 10-12 kiloqram olan qoyunlar daha baha - 22-24 manat arasında satılır. Amma qoyun 15 kiloqramdan ağır olduqda ətinin kiloqramı 20-22 manata olur. Keyfiyyətli və yerli heyvanın kiloqramı 16 manatdan aşağı olmur. Kiloqramı 13-14 manat arası satılanlar yerli heyvan deyil, Rusiyadan idxal edilənlərdir".

Xarici əti necə fərqləndirək sualına gəldikdə, qəssab bildirdi ki, sadə vətəndaşın kəsilmiş halda xarici məhsulu fərqləndirməsi çətindir. Yalnız bir neçə dəfə alıb dadının olmadığını görüb başa düşə bilər: "Başı çıxan adam görə bilər ki, xarici heyvanın qabırğasının qatlanmağı yerli heyvandakı kimi deyil. Ətin rəngi az da olsa fərqlənir. Yağlılığı da yerli heyvanlarımızdakı kimi deyil. Amma müştəri təcrübəsi olmadan bunu biləк olmur. Diri halda fərqləndirmək daha asandır. Heyvan əgər çox kökdürsə, deməli, Rusiyadan gətirilib. Həmçinin quzuların quyruqları, başları yerli heyvandan fərqli olur. Bizim yerli heyvanlar quyruqludur".

# “SON VAXTLAR KEÇMİŞ MƏNƏ DAHA YAXIN GƏLİR”



Fotolar: Coşqun Süleymanov - Global Photostock

Rəşad Məcid: “Dünyanın gələcəyi ilə bağlı skeptik düşüncələr məni çox narahat edir və daha çox keçmişə kökləyir. İnsan üçün yaşamalı dövr daha sakit, texnologiyaların hələ bu qədər inkişaf etmədiyi bir dövr idi. Bu, insanların gücünə, tempinə daha uyğun idi”.



XANIM AYDIN

Yaradıcı insanlar həmişə digərlərindən fərqləniblər. Həm həyata baxışları, daxili zənginlikləri, həm də istedadları ilə. Müsahibimiz Əməkdar mədəniyyət işçisi, Mətbuat Şurasının sədri, “525-ci qəzet”in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, şair Rəşad Məcid də yaradıcı insanlardandır.

**● Ədəbiyyatın insanı dəyişdirmə gücünə inanırsınızmı?**

● Hələ kiçik yaşlarımdan - oxumağa, yazmağa başladığım vaxtlardan belə böyük inamım olub ki, yazdıqlarımla dünyanı, insanları dəyişmək mümkündür. Hətta 2003-cü ildə qələmə aldığım məşhur “10 sentyabr” hekayəmi yazanda belə, ABŞ-İraq müharibəsinin qarşısını almaq kimi sadəlövh bir inamım vardı. Düşünürdüm ki, bir hekayə ilə bu müharibəni dayandıra bilərəm. Amma bu barədə ən yaxşı cavabı, məncə, Qabriel Qarsia Markes verib. “Ədəbiyyat olmasa, heç nə olmazdı, amma polis olmasa, dünya dağılardı”. Əlbəttə ki, o, bu sözləri zarafatyana, ironik deyib. Amma məncə, ədəbiyyat insanları dəyişir, güclü edir. Həyatımın müxtəlif məqamlarında ədəbiyyat mənə çox kömək olub. Brodski deyir ki, şeir oxuyan, yazan adama qalib gəlmək mümkün deyil. Mən də düşünürəm ki, doğrudan da, həyatından ədəbiyyat keçən adamlar güclü olurlar. İnanmasaydım ki, ədəbiyyat dünyanı dəyişəcək, heç nə yazmazdım.



### “SÖZÜN YARALAMA GÜCÜ DAHA ÇOXDUR”

**● Sizcə, söz insanın yarasını sağaldır, yoxsa daha da yaralayır?**

● Sözün yaralama gücü daha çoxdur. Ümumiyyətlə, sözün gücü çox böyükdür. Sözün gücü azalanda mən ruhdan düşmüşəm, pessimistliyə qapılmışam. Bir yaxşı sözlə buludların üstünə qalxdığım da olub, könlümə dəyən bir sözlə quyunun dibinə düşdüyüm də.

**● Bəzən susmaq yazmaqdan daha çox şey deyir. Bu fikirlə razısınızmı?**

● Yazmaq insanı depressiyadan xilas edir, quyunun dibindən çıxarır. Məyusluq, kədər, depressiya içərisində olanda insan, çox vaxt bunlardan yazmaqla qurtulur. Susmağa gəlincə, bəzi məqamlarda susmaq, yazmaqdan və ya danışmaqdan daha çox divident gətirir. Amma hər söz də insana hörmət gətirmir. Burada da diqqətli olmaq lazımdır.

### “İLK ŞEİRLƏRİMİ AĞDAMDA YAZMIŞAM”

**● Rəşad Məcid üçün yazmaq ehtiyacdır, vərdişdir, yoxsa həyat tərzi?**

● İlk şeirlərimi Ağdamda - uşaq yaşlarımda yazmışam. Amma 1988-ci ildən başlayan proseslər, jurnalistikanın daha önə keçməsi sanki məni başqa ruha köklədi. O illərdə heç şeir yazmamışam. Daha çox publisistikaya köklənmişdim. 44 günlük müharibə nəticəsində tarixi zəfərimizi qazandıqdan sonra 2021-ci ildə Şuşaya getdim. Şuşaya həsr etdiyim şeirimi yazdım. “Şuşa gündəlikləri” adlı toplunu düz bir ildən sonra çap etdirdim. “Qələmsiz yazılanlar”da belə bir şey yazmışdım: “Üçcə gün telefonu söndürə bilsəm, yazıb bitirərdim Şuşa dəftərini!” Əslində son dövrlərin sürətli həyatı, yüksək texnologiya, sosial şəbəkələr yaradıcılıqla məşğul olmağa çox da imkan vermir. Həmişə deyirəm ki, ən xoşbəxt, ən güclü olduğum anlar, ürəyimcə olan bir şeiri yazdığım anlardır. Cek Londonun bu sözü çox gözəldir: “Dünyada yaradıcılıq zövqündən üstün bir şey yoxdur!” Mən o zövqü arada dadıram və həmin anlarda çox xoşbəxt oluram.

**● Zaman anlayışı sizin üçün daha çox keçmişdə yaşamaq, indini anlamaq, yoxsa gələcəyi düşünməkdir?**

● Təlatümlü dövr yaşayırıq, pandemiya, müharibələr, qırğınlar... Dünyanın gələcəyi ilə bağlı skeptik düşüncələr məni çox narahat edir və daha çox keçmişə kökləyir. İnsan üçün yaşamalı dövr daha sakit, texnologiyaların hələ bu qədər inkişaf etmədiyi bir dövr idi. Bu, insanların gücünə, tempinə daha uyğun idi. Bəzən də həyatın bir nöqtəsində dayanıb düşünürəm ki, deyəsən, səhv yaşadım. İndi bir çox dəyərlər dəyişib, bəlkə də vaxtında daha uzaqgörən olsaydım, fərqli dəyərləri seçə bilərdim. Son vaxtlar keçmiş mənə daha yaxın gəlir.

## “BƏZƏN ƏN KİÇİK BİR SÖZ BELƏ MƏNİ MƏYUS EDİR”



**● Zəif nöqtəniz nədir? Sizi nə ilə sınağa çəkmək olmaz?**

● Gənc şair dostumuz Zərdüşt Şəfi rəhmətə gedəndə - dəfnində hönkür-hönkür ağladım. Çoxu təəccübləndi. Amma mən çox həssas insanam. Bugünlərdə Ağdamda Muğam Mərkəzinin açılışında Əhəd Ağayevin oxumağı məni kövrəltdi. Zəif yerlərim mənəvi və ruhi məqamlarla bağlıdır. Bəzən ən kiçik bir söz belə məni məyus edir.

**● Tilsimdir, ovsundur, cadudur Şuşa...**

● Şuşa işğal olunanda mən üç gün qolumu hiss etmədim. O qədər pis təsir etmişdi... Amma həmişə oraya qayıdacağımıza inanırdım. 2021-ci ilin mayın 12-də Şuşaya gedəndə o qədər xoşbəxt oldum ki.. Cıdır düzünə qalxdıq. Əyilib torpağı öpdüm. Prezident İlham Əliyev çıxışında da dedi ki, dünyanın çox gözəl şəhərlərində olmuşam, amma Şuşa kimisi yoxdur. Bu sözlər də məni hönkür-hönkür ağlatdı.

**● Azərbaycan Yazıçılar Birliyinin də sizin üçün xüsusi bir önəmi var...**

● Bakıya 15 yaşımda gəlmişəm. Yazdığım şeirləri “Ulduz” jurnalına gətirmişdim. Jurnalın şeir şöbəsinin müdiri Vaqif Cəbrayılzadə vərəqin bir kənarında yazmışdı ki, “Məmməd Araz, Əli Kərim, Nazim Hikmət, Mayakovskini oxumalı”. Mən o kağızı indiyə qədər saxlamışam. Buraya gəlirdim, yolun digər tərəfindən İmran Qasımov, İsmayıl Şıxlı, Hüseyn Abbaszadəni görür, qürur duyurdum. Əslində, onları görməyə gəlirdim. Tale elə gətirdi ki, 2004-cü ildə Anar müəllim təklif etdi, mən AYB-nin gənclər üzrə katibi oldum. 21 ildir AYB-dəyəm. Fikrət Qoca rəhmətə gedəndən sonra sədr müavini vəzifəsinə təyin edildim. Bu otaqda oturmalı oldum. Mən bu otaqda ilahi duyğular içində oluram. Ruhumu qəribə hisslər bürüyür.

**● Qarşıdan mətbuatın 150 illiyi gəlir...**

● Bu il milli mətbuatımızın 150 illiyidir. Cənab Prezident yubiley tədbirlərinin keçirilməsi üçün sərəncam imzaladı. Mən də Şuşada mətbuat muzeyinin yaradılması üçün müraciət etmişəm. Arzum budur ki, Azərbaycanda ilk mətbuat muzeyi məhz orada yaradılsın.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
31 MAY ŞƏNBƏ 2025

Bakı mötəbər beynəlxalq yarışa ev sahibliyi edir. Milli Gimnastika Arenasında davam edən minifutbol üzrə dünya çempionatı yaddaşlarda iz buraxır.



Fotolar: Rüfət Mikayılov - Global Photostock

## “MÖHTƏŞƏM TƏŞKİLATÇILIĞA GÖRƏ TƏBRİK EDİRƏM”

Türkiyə Minifutbol Federasiyasının prezidenti Cem Durul bildirib ki, indiyədək keçirilən dünya çempionatlarından ən gözəli Bakıda təşkil olunandır. “Qardaş ölkə Azərbaycanı möhtəşəm təşkilatçılığa görə ürəkdən təbrik edirəm. Bu günə qədər təşkil olunmuş dünya çempionatları arasında ən gözəli Bakıda keçirilləndir. Bunu bütün qəlbimlə söyləyirəm”, - deyə C.Durul söyləyib.

Minifutbol üzrə Türkiyə millisinin baş məşqçisi Durul Tuğ təşkilatçılıq baxımından hər şeyin yüksək səviyyədə olduğunu bildirib: “Bir çox turnirlərdə iştirak etmişik. Sizin ölkənizdəki tamam fərqlidir. Azərbaycan xalqından daha çox dəstək istəyirik. Hoteldə, küçədə və başqa yerlərdə özümüzü Türkiyədəki kimi hiss edirik”.



Cem Durul

# MÖHTƏŞƏM TƏŞKİLATÇILIQ, ÜRƏKAÇAN NƏTİCƏLƏR

Mayın 21-dən başlayaraq Bakı mötəbər beynəlxalq yarışa ev sahibliyi edir. Milli Gimnastika Arenasında minifutbol üzrə dünya çempionatı keçirilir. Bu, Dünya Minifutbol Federasiyasının (WMF) təşkilatçılığı ilə baş tutan beşinci mundialdır. Əvvəlki dörd yarışda ABŞ, Çexiya, Meksika və Rumıniya çempion olublar. Çempionatın keçirilməsinə xüsusi hazırlıq görülüb. Mundialın açılış mərasimi də xüsusi zövqlə hazırlanıb. Mərasimdə ölkəmiz haqqında xüsusi işıq və musiqi şousu nümayiş olunub. Rəqqasların ritmik və dinamik ifaları ilə müşayiət olunan səhnəcik tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Fransalı məşhur fristayler, bu növdə dünya çempionu olmuş Arno Qarnye futbolla bağlı nümayiş etdirdiyi möhtəşəm texniki hərəkətlərlə tədbirə xüsusi rəng qatıb. Xalq artisti Aygün Kazımova və Türkiyənin məşhur pop ulduzu Aleyna Tilki enerjili ifaları ilə tamaşaçılara unudulmaz anlar yaşadıblar.

### ƏVVƏLKİLƏRDƏN YAXŞI MƏNADA FƏRQLƏNƏN ÇEMPİONAT

İştirakçılar da Bakıda keçirilən dünya çempionatının təşkilatçılığını yüksək qiymətləndiriblər.

Dünya Minifutbol Federasiyasının vitse-prezidenti Peter Kralik Azərbaycanda keçirilən dünya çempionatının əvvəlkilərdən fərqləndiyini, turnirin ən gözəl şəkildə gerçəkləşəcəyinin əvvəlcədən bəlli olduğunu bildirib:

“Azərbaycanda keçirilən dünya çempionatı təşkilatçılıq baxımından əvvəlkilərdən çox fərqləndi. Keçən il Birləşmiş Ərəb Əmirliklərində keçirmişdik. Oradakı stadion açıq havada, sahildə tikilmişdi. Ən böyük fərq odur ki, bu dəfə dünya çempionatını təşkil edən ölkənin komandası yarışın üç ən güclü iştirakçısından biridir. Bu səbəbdən turniri ən gözəl şəkildə keçirəcəkləri bəlli idi. Arena, oyunçuları daşıyan komanda möhtəşəmdir. İnanıram ki, bu çempionat minifutbolu daha da yüksəklərə qaldıracaq və gələcəkdə böyük uğurlara qapı açacaq. Təşkilatçılara təşəkkürümü bildirirəm”.





Peter Kralik

## “ŞƏHƏRİNİZDƏ HƏR ŞEY MÜKƏMMƏLDİR”

Dünya çempionatının təşkilatçılığı Mavritaniya Minifutbol Federasiyasının prezidenti Yakub Douanı da təəccübləndirib. Funksioner bildirib ki, bundan əvvəl beynəlxalq turnirlərdə iştirak etsələr də, Bakıdakı kimi yaxşı təşkilatçılıq görməyiblər: “Təşkilatçılıq məni təəccübləndirdi. Çünki daha əvvəl Dünya Minifutbol Federasiyasının təşkil etdiyi U-23 dünya çempionatında da olmuşam. Belə deyildi. Buraya gələndə həm də ona görə təəccübləndik ki, şəhərinizdə hər şey mükəmməldir”.

Bəhreyn yığmasının futbolçusu Əli Xəlifə də Azərbaycanın mundialın necə təşkil olunmasını bütün dünyaya göstərdiyini bildirib: “Buna görə Azərbaycana təşəkkür edirəm. Hər şey çox yaxşı və yüksək səviyyədədir. Ölkəniz mundialın necə təşkil olunmasını bütün dünyaya göstərdi”.

### “MİLLİ GİMNASTİKA ARENASI ÇOX MÖHTƏŞƏMDİR”

Minifutbol üzrə ABŞ yığmasının üzvü Stefan Miyatoviç də dünya çempionatının keçirildiyi Milli Gimnastika Arenasına heyran qalıb: “Milli Gimnastika Arenası çox möhtəşəmdir. Həqiqətən futbol oynamaq üçün əla imkan yaradılıb. Gördüklərimiz bizi sözün yaxşı mənasında təəccübləndirir”.

İsrail Minifutbol Federasiyasının nümayəndəsi Qay Vaynerman da Bakıdakı dünya çempionatının çox gözəl təşkil olunduğunu bildirib: “Açılış həqiqətən əla alındı. Burada gördüklərimiz bizi sözün ən yaxşı mənasında təəccübləndirdi. Həmin vaxt olan atmosferi sözlə ifadə edə bilmirəm. Milli Gimnastika Arenası çox gözəldir”.

## YIĞMAMIZ FİNALA GEDƏN YOLDA SON ƏNGƏLİ DƏ AŞDI

Təbii ki, turnir boyu əsas diqqət Azərbaycan milli komandasının çıxışına yönəlib. Azərbaycan yığması A qrupunda Sloveniya, Mavritaniya və Bəhreynlə üz-üzə gəlib.

Yığmamız qrupdakı ilk oyununu Bəhreyn seçməsinə qarşı keçirib. Oyun heç-heçə başa çatıb - 1:1. Daha sonra Elşad Quliyevin yetirmələri əvvəlcə Sloveniya yığmasına 4:0 hesabı ilə qalib gəliblər. Üçüncü turda isə komandamız Mavritaniyanı 2:0 hesabı ilə məğlub edib. Bu nəticədən sonra komanda adını növbəti mərhələyə yazdırıb.

Yığmamız 1/8 finalda son dünya çempionu Rumıniya ilə üz-üzə gəlib. Qarşılaşmanın əsas vaxtı 1:1 hesabı ilə yekunlaşıb. Qalibi müəyyənləşdirmək üçün penalti zərbələrinə ehtiyac duyulub. Burada daha dəqiq oynayan (2:1) komandamız növbəti mərhələyə vəsiqə qazanıb. Azərbaycan yığmasının 1/4 finaldakı rəqibi İngiltərə olub. Qarşılaşma yığmamızın 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Azərbaycan yarımfinalda Montenegro ilə münasibətlərinə aydınlıq gətirib. Qarşılaşma yığmamızın 2:1 hesablı qələbəsi ilə başa çatıb. Bununla da millimiz dünya çempionatında finala yüksəlib.